> “O müttəqilər ki, bolluqda da, qıtlıqda da (mallarını yoxsullara) xərcləyər, qəzəblərini udar, insanların günahlarından keçərlər. Allah yaxşılıq edənləri sevər”
>
> *(Qurani-Kərim, Ali İmran, 134)*

**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində alimlərlə görüş keçirilib**

Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi Himayəçilik Şurasının sədri Kamal Abdulla Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində alimlərlə görüş keçirib. Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi tarixinin araşdırılması müzakirə edildiyi tədbirdə ermənilərin Azərbaycan ərazilərinə köçürülməsinin tarixi mərhələləri barədə də danışılıb. Türkmənçay müqaviləsindən sonra Çar Rusiyasının bölgədə öz mövqelərini möhkəmləndirmək naminə erməniləri Azərbaycanın tarixi torpaqlarına köçürməsi siyasəti ətrafında fikir mübadiləsi aparılıb. Müzakirələrin sonunda mövzu haqqında təkliflərin sistemləşdirilməsi və müvafiq tədbirlərin həyata keçirilməsi məqsədilə tarixçi alimlərdən ibarət təşkilat komitəsi yaradılıb.


www.scwra.gov.az

# Cəmiyyət və Din

*Dinimiz milli-mənəvi sərvətimizdir.*

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 03 (284) / MART 2015-ci il


# Trans-Anadolu qaz boru kəmərinin təməli qoyuldu

## *Prezident İlham Əliyev: Bu, ilk növbədə, Türkiyə-Azərbaycan birliyinin layihəsidir*




Martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda Trans-Anadolu qaz boru kəməri – TANAP-ın təməlinin qoyulması münasibətilə təntənəli mərasim keçirilib.

Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Gürcüstan Prezidenti Giorgi Marqvelaşvili mərasimdə iştirak ediblər.

Əvvəlcə TANAP layihəsinə həsr olunmuş film nümayiş etdirilib. Filmdə qeyd olunur ki, TANAP Türkiyə və Azərbaycan qardaşlığının Anadoluya atılan imzasıdır. Azərbaycanın və Türkiyənin birgə səylərinin məhsulu olan bu layihə üzrə saziş 2012-ci ildə İstanbulda imzalanıb. Layihə Azərbaycandan başlayan genişlənmiş Cənubi Qafqaz boru kəmərini Avropa İttifaqında bir neçə kəmərlə əlaqələndirəcək. Beş il ərzində reallaşması nəzərdə tutulan layihə bir neçə mərhələdə həyata keçiriləcək və ilk mərhələ 2018-ci ildə başa çatacaq. 2020-ci ildə bu kəmərlə nəql olunacaq qazın həcmi ildə 16 milyard, 2023-cü ildə 23 milyard, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılacaq. İlk dövrdə TANAP kəməri ilə nəql olunacaq 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə satılacaq. Avropa üçün nəzərdə tutulan qaz Türkiyə-Bolqarıstan və ya Türkiyə-Yunanıstan sərhədində təhvil veriləcək.

Mərasimdə Türkiyə, Azərbaycan və Gürcüstanın dövlət himnləri səslənib.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev TANAP-ın həyata vəsiqə qazanmasının Azərbaycan və Türkiyə dövlət başçılarının səyləri nəticəsində mümkün olduğunu bildirdi, bu layihənin ölkələrimizin inkişafına və xalqlarımızın rifahına xidmət edəcəyini diqqətə çatdırıb.

“Bu gün burada ABŞ Prezidenti Barak Obamanı və dövlət katibi Con Kerrini təmsil etmək mənim üçün şərəfdir”, - deyən Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi Amos Hoxstayn bildirib ki, ABŞ “Cənub” qaz dəhlizini 20 il bundan əvvəl başlayan Bakı-Tbilisi-Ceyhan boru xətti prosesinin tamamlanması kimi görür. TANAP layihəsinin həyata keçirilməsinin ABŞ hökuməti üçün çox önəmli olduğunu deyən A.Hoxstayn “Cənub” qaz dəhlizi layihəsinin icrası ilə bağlı Birləşmiş Ştatların dəstəyini ifadə edib.

Avropa Komissiyasının enerji məsələləri üzrə vitse-prezidenti Maroş Şefçoviç 2014-cü ildə Bakıda “Cənub” qaz dəhlizinin, 6 ay sonra isə Qarsda TANAP layihəsinin təməlinin qoyulmasını mühüm hadisə kimi dəyərləndirib. “Cənub” qaz dəhlizinin əsas hissələrindən olan TANAP-ın reallaşmasına göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən M.Şefçoviç deyib ki, layihəyə böyük əhəmiyyət verən Avropa İttifaqı işlərin yüksək səviyyədə həyata keçirilməsi üçün bundan sonra da əlindən gələni edəcək.

Türkiyənin enerji və təbii sərvətlər naziri Taner Yıldız Avropa İttifaqı ölkələrinin təbii qaza ehtiyacının ödənilməsi istiqamətində mühüm layihə olan TANAP-ı “Cənub” qaz dəhlizinin əsas hissəsi adlandırıb. O, böyük siyasi əhəmiyyətə malik bu layihənin ölkələrimizdəki iqtisadi inkişafın təminatçısı olacağını deyib.

Gürcüstan Prezidenti Giorgi Marqvelaşvili “Cənub” qaz dəhlizinin ölkəsi üçün də çox önəmli olduğunu qeyd edərək, bu layihənin regionun inkişafında mühüm rol oynayacağını bildirib. Gürcüstan dövlətinin başçısı TANAP layihəsinin Asiya ilə Avropa arasında enerji dəhlizi rolunu oynadığını, ticarət, turizm və digər layihələrin inkişafına xidmət edəcəyini, ölkələrimizin enerji təhlükəsizliyinin təmin olunmasına güclü dəstək verdiyini diqqətə çatdırıb.

Mərasimdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev bir daha Türkiyədə olmaqdan məmnunluğunu bildirib, gələn ay Çanaqqala zəfərinin 100 illik yubileyində qardaş ölkəyə yenidən səfər edəcəyini söyləyib. “Bu gün tarixi gündür və bu layihə, ilk növbədə, Türkiyə-Azərbaycan birliyinin layihəsidir”, - deyən dövlətimizin başçısı ölkələrimizin bir-birinin uğurlarına hər zaman sevindiyini diqqətə çatdırıb. Bildirib ki, 1994-cü ildə Ulu Öndər Heydər Əliyevin siyasi müdrikliyi və cəsarəti sayəsində reallaşan “Əsrin müqaviləsi” ilə başlanan enerji siyasəti nəticəsində ilk dəfə Xəzər dənizinə xarici neft şirkətləri gəlib. Xəzər neftinin ixrac olunması üçün inşa edilən Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istifadəyə verilməsi bölgənin və qitənin enerji təhlükəsizliyində əvəzsiz rol oynadı. TANAP qaz kəmərinin də bu enerji dəhlizi üzrə inşa edildiyini deyən Prezident İlham Əliyev dünya miqyasında böyük qaz yataqlarından olan “Şahdəniz”in “Cənub” qaz dəhlizi üçün yeganə resurs mənbəyi olduğunu vurğulayıb. Qısa vaxtda dünyada böyük dəstək qazanan TANAP, 2013-cü ildə “Cənub” qaz dəhlizinin tərkib hissəsi kimi seçilən TAP layihələri üzrə işlərin cədvəl üzrə gedəcəyinə əminliyini ifadə edən dövlətimizin başçısı “Cənub” qaz dəhlizini Avropanın ən böyük infrastruktur layihəsi kimi dəyərləndirib. Bildirib ki, Azərbaycanın malik olduğu nəhəng qaz ehtiyatları “Cənub” qaz dəhlizini təmin edəcək, bu layihə ölkələr arasında yeni əməkdaşlıq formatlarının yaranmasına səbəb olacaq.

səh. 2



**Prezident İlham Əliyev Bərdə türbəsində aparılan təmir işlərinin gedişi ilə tanış olub**

səh. 2




**Oğuzda “Ənənəvi İslam dəyərləri və müasirlik” mövzusunda regional konfrans olub**

səh. 5

**Mübariz Qurbanlı: Dini radikalları çökdürəcəyik**

səh. 10

**Novruzun ruhu imandandır**

səh. 14

# Prezident İlham Əliyev Bərdə türbəsində aparılan təmir işlərinin gedişi ilə tanış olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də Bərdə türbəsində aparılan təmir işlərinin gedişi ilə tanış olub.

Qeyd edək ki, 1322-ci ildə Əcəmi memarlıq məktəbinin nümayəndələrindən olan Əhməd bin Əyyub əl-Hafiz Naxçıvani tərəfindən inşa olunmuş və hündürlüyü 12,5 metr olan türbənin yerüstü hissəsi üç əsas memarlıq quruluşundan ibarətdir.

Türbə daşdan hörülmüş kürsülük, dairəvi gövdə və çadırvarı günbəzdən, yeraltı hissəsində dəfn üçün ayrılmış sərdabədən, yerüstü hissəsi isə xatirə abidəsindən ibarət olub. Bolşeviklərin Azərbaycanı işğal etmələrindən sonra abidənin kitabələri dağıdılıb, üzərində ərəb əlifbası ilə yazılan sözlərin bir hissəsi silinib. Uzun illər baxımsız qalan türbənin qala qapıları uçub dağılmış, özü bərbad vəziyyətə düşmüş, həyətyanı sahədə ağaclar qurumuş və yaxud qırılıb məhv edilmişdi. Abidənin ərazisinin xeyli hissəsi ayrı-ayrı şəxslər tərəfindən zəbt olunaraq müxtəlif məqsədlər üçün istifadə edilirdi.

Sonralar tariximizin yadigarı, əsrlər boyu yadelli istilaçılara boyun əyməyib bu günümüzədək gəlib çıxan türbənin ətrafı təmizlənmiş, zəbt olunmuş həyətyanı sahələr geri alınmış və bir sıra əlavə işlər görülmüşdü. Buna baxmayaraq, türbənin bərpası və təmiri mümkün olmamışdı.

Nəhayət tarixi keçmişimizə, abidələrimizə həssaslıqla yanaşan Prezident İlham Əliyevin göstərişi ilə 2011-ci ildə Bərdə rayonunda başlanan genişmiqyaslı abadlıq və bərpa işləri türbənin təmirini gündəmə gətirmişdir. Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni irsin qorunması, inkişafı və bərpası üzrə Dövlət Xidməti tərəfindən Bərdə türbəsində bərpa işlərinə başlanıb və bu proses davam etdirilir. Bərpaçılar tarixi abidəni əzəli görkəminə qaytarmaq üçün qiymətli tikinti materiallarından istifadə edirlər. Həyətyanı sahədə abadlıq-tikinti işləri aparılır.

# Trans-Anadolu qaz boru kəmərinin təməli qoyuldu




*(əvvəli 1-ci səhifədə)*

Türkiyə, Azərbaycan və Gürcüstanın birgə təşəbbüsü ilə həyata keçirilən layihələrin hər zaman uğur qazandığını vurğulayan, bu layihənin də eyni taleyi yaşayacağına əminliyini bildirən Prezident İlham Əliyev Avropanın qaza olan tələbatının ödənilməsində Azərbaycanın mühüm rolunu qeyd edib, TANAP layihəsinin təməlinin Novruz bayramı ərəfəsində, ilaxır çərşənbə günündə qoyulmasının rəmzi məna daşıdığını deyərək layihəyə uğurlar arzulayıb.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu layihənin sülhə və rifaha xidmət etməsini arzulayıb. Dövlət başçısı "Şahdəniz" qazını Avropaya çatdıracaq bu kəmərin əhəmiyyətindən danışaraq, onun ilk növbədə, ölkələrimizin və bölgə xalqlarının rifahına xidmət edəcəyini bildirib. Nəzərdə tutduğu hədəflərin özəlliyi baxımından TANAP-ın alternativinin olmadığını deyən Rəcəb Tayyib Ərdoğan onun Avropa ilə Xəzər bölgəsi arasında güclü əlaqə yaradacağını, layihənin nəzərdə tutulduğu vaxtda istismara veriləcəyinə əmin olduğunu qeyd edib.

Sonra TANAP boru kəmərinin təməli qoyulub.

# Prezident İlham Əliyev Müqəddəs Taxt-Tacda – Vatikanda rəsmi səfərdə olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Müqəddəs Taxt-Taca – Vatikana rəsmi səfər edib.

* * *

Martın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Vatikanda Katolik Kilsəsinin rəhbəri Papa Fransisk ilə görüşüblər.

Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Vatikanda rəsmi qarşılanma mərasimi olub.

Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Katolik Kilsəsinin rəhbəri Papa Fransiskin görüşündə Azərbaycan ilə Vatikan arasında ikitərəfli əlaqələrin yüksək səviyyəsindən məmnunluq ifadə edilib. Münasibətlərimizin yaxşı perspektivlərinin olduğu vurğulanıb. Vatikanın Azərbaycan ilə əlaqələrə yüksək qiymət və mühüm əhəmiyyət verdiyi bildirilib. Mədəniyyətlərarası və dinlərarası münasibətlərə Azərbaycanın verdiyi önəmin dövlətlərimiz arasında ikitərəfli əməkdaşlığın inkişafında mühüm rol oynadığı diqqətə çatdırılıb. Ölkəmizdə nümunəvi tolerantlıq mühitinin olduğu, bütün dini konfessiyaların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadığı bildirilib.

Söhbət zamanı Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun son illərdə Vatikanda həyata keçirdiyi müxtəlif mədəni layihələrin əhəmiyyəti vurğulanıb.

Görüşdə qarşılıqlı hədiyyələr təqdim edilib.

* * *

Həmin gün Vatikana rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolin ilə geniş tərkibdə görüşü olub.

Görüşdə Azərbaycan ilə Vatikan arasında ikitərəfli əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə edilib. Azərbaycanda bütün dinlərə münasibətin yüksək səviyyədə olduğu, müxtəlif dini icmalar arasında qarşılıqlı anlaşma və etimad mühitinin hökm sürdüyü bildirilib. Azərbaycanda multikulturalizmin yaxşı ənənələrinin olduğu diqqətə çatdırılıb. Bu sahənin inkişafına xüsusi diqqətin göstərildiyi, ölkəmizdə sabitliyin və qarşılıqlı anlaşmanın yüksək səviyyədə olduğu vurğulanıb.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ətraflı fikir mübadiləsi aparıldı.

* * *

Bununla da martın 6-da Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Müqəddəs Taxt-Taca - Vatikana rəsmi səfəri başa çatıb.

## DQİDK Kollegiyasının yeni tərkibi təsdiqlənib

Nazirlər Kabineti Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Kollegiyasının yeni tərkibini təsdiqləyib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin kollegiya üzvlərinin sayı 7 nəfərdən ibarət müəyyənləşdirilib.

Kollegiyanın sədri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Kollegiyanın üzvləri isə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov, Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov, Dövlət Komitəsinin Aparat rəhbəri Oqtay Hüseynov, Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi Vüqar Babayev və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin ümumi şöbəsinin müdiri Alim Süleymanovdur.

## Türkiyə Baş nazirinin baş müşaviri Azərbaycandakı multikultural cəmiyyət haqqında məlumatlandırılıb



Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayev ölkəmizdə səfərdə olan Türkiyə Baş nazirinin baş müşaviri, Türkiyənin BMT-nin Sivilizasiyaların Alyansı üzrə Milli Əlaqələndirmə Komitəsinin sədri Bekir Karlığanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Dövlət müşaviri ölkəmizdə mədəniyyətlərarası dialoqun daha da dərinləşməsi və inkişafı məqsədilə görülən işlərdən, Azərbaycanda mövcud olan multikultural cəmiyyətdən, digər dinlərin və mədəniyyətlərin nümayəndələrinə qarşı tolerant münasibətdən söz açıb. Prezident İlham Əliyev tərəfindən bu sahəyə xüsusi həssaslıqla yanaşıldığı, bunun nəticəsi olaraq ölkəmizdə Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidmətinin yaradıldığı qeyd edilib. Bundan əlavə, dövlət başçısının digər fərmanları ilə Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradıldığı, bu qurumların əsas məqsəd və məramlarının nədən ibarət olduğu qonaqların diqqətinə çatdırılıb.

Bekir Karlığa Azərbaycan ilə Türkiyə arasında olan dostluqdan və bütün sahələrdə birgə əməkdaşlıqdan söz açaraq Prezident İlham Əliyevin bu istiqamətdə atdığı qətiyyətli addımları qeyd edib. O, Prezident İlham Əliyevin dünya ictimaiyyəti qarşısında ən böyük xidmətlərindən birinin də Azərbaycanda multikulturalizmin inkişaf etdirilməsi olduğunu söyləyib. Baş müşavir, həmçinin hazırda gördükləri işlər, Azərbaycanda, eləcə də digər türk dövlətlərində reallaşdırmaq istədikləri layihələr haqqında məlumat verib.

Bekir Karlığa 2016-cı ildə BMT Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsinin çox böyük əhəmiyyətinin olduğunu vurğulayıb.

Görüşdə Azərbaycanda və Türkiyədə mövcud olan və eyni amala xidmət edən qurumların gələcəkdə birgə əməkdaşlığının qurulması, ortaq layihələrin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

## Multikulturalizm, tolerantlıq Azərbaycanın hər bir vətəndaşının həyat tərzinə çevrilib



Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayev martın 3-də Tbilisi Dövlət Universitetinin professor, müəllim və tələbələri ilə görüşüb.

Görüşdə Gürcüstan Prezidentinin milli azlıqlar üzrə müşaviri Sofiko Şamanidi, Azərbaycanın bu ölkədəki səfiri Azər Hüseyn və digər rəsmi şəxslər iştirak ediblər.

Universitetin müəllimi, Beynəlxalq Psixolinqvistika Cəmiyyətinin sədri, professor David Qoçolidze müasir dünyada baş verən dini, sosial və siyasi cərəyanlar, mövcud problemlər və onların həllində bir sıra konsepsiyaların, o cümlədən multikulturalizmin rolundan danışıb. Bildirib ki, Tbilisi Dövlət Universitetində "Azərbaycan multikulturalizmi" fənni tədris olunacaq. Dövlət müşaviri, tarixi əsərləri, multikulturalizm sahəsində xüsusi biliyi və təcrübəsi ilə dünyada tanınan Kamal Abdullayev multikulturalizmlə bağlı fikirlərini bölüşəcək.

Sonra Kamal Abdullayev Azərbaycanda çoxəsrlik ənənələrə malik tolerantlıq mühiti, ayrı-ayrı dinlərin nümayəndələri arasında qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlıq münasibətləri barədə məlumat verib. O, Prezident İlham Əliyevin dövlət-din münasibətlərinə xüsusi həssaslıqla yanaşdığını qeyd edib, ölkəmizdə dövlət-din münasibətləri, tolerantlıq sahəsində görülən işlər və həyata keçirilən layihələrdən danışıb.

Bildirilib ki, hazırda Azərbaycanın səkkiz universitetində multikulturalizm tədris olunur. Almaniya, İtaliya, Litva, Belarus, Rusiya və Bolqarıstanda da multikulturalizmin tədrisinə xüsusi diqqət yetirilir. Qonşu Gürcüstanda da bu fənnin tədrisi yeni nəslin dünyaya baxışının formalaşmasında, eləcə də ölkələrimiz arasındakı münasibətlərin inkişafında mühüm rol oynayacaq.

Sonra müəllim və tələbələrin sualları cavablandırılıb.

## "Multikulturalizm - Azərbaycan Respublikasının dövlət siyasəti kimi"



Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidmətinin ideya və təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) Rəhbər Dövlət İdarəçiliyi Kadrlarının İxtisasının Artırılması İnstitutunun rəhbər kadrların fasiləsiz təhsil mərkəzində "Multikulturalizm - Azərbaycan Respublikasının dövlət siyasəti kimi" mövzusunda qısamüddətli kurslar təşkil olunub.

Azərbaycan multikulturalizminin ölkə daxilində və xaricdə təbliği ideyasına xidmət edən kursun əsas məqsədi ölkəmizdə icra hakimiyyəti orqanlarında və müxtəlif qurumlarda çalışan işçilərə Azərbaycan multikulturalizmi və ölkəmizdəki multikultural mühitin və tolerantlığın mənəvi və hüquqi təminatı ilə bağlı sistemli bilgilər verməkdən ibarətdir.

Artıq ikinci dəfə təşkil olunan kursun açılışında Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, akademik Kamal Abdullayev məruzə ilə çıxış edib. "Ümummilli Lider Heydər Əliyev siyasi multikulturalizmin banisi kimi" mövzusunda dinləyicilər qarşısında çıxış edən Kamal Abdullayev ölkəmizdə mövcud multikultural və tolerant mühit, bu mühitin yaradılmasında Ulu Öndərin böyük uzaqgörənliklə atdığı addımlar, Prezident İlham Əliyevin Azərbaycan multikulturalizmi modelini dünyaya xalqımızın sahib olduğu sərvət kimi təqdim etməsi və dünyanı Azərbaycan nümunəsindən faydalanmağa dəvət etməsi, həmçinin ölkəmizdəki multikultural mühitin hüquqi və siyasi bünövrəsi haqqında dinləyicilərə geniş bilgilər verib.

Kursun növbəti günlərində DİA-nın rektoru, akademik Urxan Ələkbərov, Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun direktoru, professor İlham Məmmədzadə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Azad Məmmədov, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun icraçı direktoru Oqtay Səmədov mühazirələr oxuyublar.

# Dövlət Komitəsinin sədri Fransanın ölkəmizdəki səfirinin I müşaviri Fabyen Brua Lozinskini qəbul edib

Martın 16-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Fransanın ölkəmizdəki səfirinin I müşaviri Fabyen Brua Lozinskini qəbul edib.

Görüş zamanı Komitə sədri ölkədəki dini durum, dini icmaların fəaliyyəti, dövlətin dinə qayğısı və tolerantlıq siyasəti barədə danışaraq qeyd edib ki, dövlət-din münasibətləri qanunvericiliklə tənzimlənir. Ölkədə dini radikalizm meyillərinin qarşısının alınması üçün mühüm tədbirlər həyata keçirilir. Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, Azərbaycan ənənəvi İslam ölkəsi olmaqla yanaşı, eyni zamanda dünyəvi dövlətdir, dini və milli kimliyindən asılı olmayaraq bütün vətəndaşlar qanun qarşısında bərabərdirlər.

Səmimi görüş üçün minnətdarlıq edən qonaq ölkəmizdəki tolerantlıq mühitindən, müxtəlif xalqların və dini konfessiya nümayəndələrinin birgə yaşayışından məmnunluğunu ifadə edib. O bildirib ki, Azərbaycan müxtəlif mədəniyyətlərə, sivilizasiyalara məxsus insanların birgə və sülh şəraitində yaşaya biləcəyini göstərən ən gözəl nümunədir.



# Dövlət Komitəsinin sədri Gürcüstanın Azərbaycandakı səfiri ilə görüşüb

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Gürcüstanın Azərbaycandakı səfiri Teymuraz Şaraşenidzeni qəbul edib. Görüş zamanı Azərbaycan ilə Gürcüstan arasında din sahəsində münasibətlərin bundan sonra da uğurla inkişaf etməsinin vacibliyi vurğulanıb.

Qarşılıqlı hörmət və səmimiyyət şəraitində keçən görüşün sonunda səfir səmimi qəbula görə Dövlət Komitəsinin sədrinə təşəkkürünü bildirib.





# Dövlət Komitəsində BMT Sivilizasiyalar Alyansının nümayəndə heyəti ilə görüş olub

Martın 12-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində Türkiyə Baş nazirinin böyük müşaviri, professor Hacı Bəkir Karlığanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı qonaqları salamladıqdan sonra yaxın günlərdə Türkiyəyə etdiyi rəsmi səfərdən məmnunluqla danışıb. O qeyd edib ki, Türkiyənin türk-müsəlman dövləti olaraq Sivilizasiyalar Alyansının yaradılmasında və fəaliyyətində böyük rolu var. Qloballaşan dünyada isə sivilizasiyaların anlaşması və dialoqu olduqca mühüm məsələdir.

Səmimi qəbula görə təşəkkür edən Hacı Bəkir Karlığa vurğulayıb ki, Türkiyə və Azərbaycan qardaş ölkələrdir və iki ölkənin kədəri də, sevinci də eynidir. Daha sonra qonaq BMT Sivilizasiyalar Alyansının 2016-cı ildə Bakıda keçirilməsi nəzərdə tutulan VII Qlobal Forumu ilə bağlı fikirlərini bölüşüb.

Qlobal Foruma hazırlıq çərçivəsində görüləcək işlər, 127 ölkənin iştirak edəcəyi Forumda Azərbaycanın yüksək səviyyədə təqdimatı, Dövlət Komitəsinin bu sahədə görə biləcəyi işlər ərtafında geniş fikir mübadiləsi aparılıb. Türk və İslam dünyasının dünya elminə və mədəniyyətinə saysız-hesabsız töhfələr verməsi, dünya mədəniyyət tarixində böyük rolu olması kimi vacib məqamların yüksək səviyyəli tədbirlərdən dünya ictimaiyyətinə çatdırılmasının zəruriliyi vurğulanıb.

# Dövlət Komitəsinin sədri ABŞ-ın Corctaun Universitetinin imamı Yəhya Hendini qəbul edib



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı martın 12-də "Amerika günləri" festivalı çərçivəsində ölkəmizdə səfərdə olan ABŞ-ın Corctaun Universitetinin imamı Yəhya Hendi ilə görüşüb.

Görüşdə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ölkəmizin tolerantlıq ənənələri, dövlətin multikultutalizm siyasəti, dini konfessiyalar arasındakı münasibətlərdən danışaraq bildirib ki, Azərbaycanda dini etiqad azadlığı tam təmin olunub. Mübariz Qurbanlı deyib ki, ölkəmizdə dinə yüksək səviyyədə dövlət qayğısı var və bu qayğı bütün konfessiyaları əhatə edir. Corctaun Universitetinin imamı Yəhya Hendi Azərbaycana səfərindən və burada keçirdiyi görüşlərdən danışaraq qeyd edib ki, artıq ikinci dəfədir ölkəmizə səfər edir. Qonaq bildirib ki, Azərbaycan ona doğma ölkədir və burada sürətlə gedən inkişaf prosesi onu sevindirir. Dini icmalarla keçirdiyi görüşlərdən bəhs edən Yəhya Hendi ölkəmizdəki dini tolerantlıqdan, dini icmaların fəaliyyətindən məmnunluq duyduğunu, ölkəmizin tolerantlıq modelinin bütün dünya üçün nümunə ola biləcəyini vurğulayıb.

# Komitə sədri: "Biz bunu qətiyyətlə pisləyirik"

***"Ümumiyyətlə, Dağlıq Qarabağ işğal altındadır. Dağlıq Qarabağa bitişik 20 faiz ərazilərimiz hələ də Ermənistan dövləti tərəfindən işğal altında saxlanılır. İşğal olunmuş ərazilərimizdə isə Azərbaycana maddi və mənəvi zərbələr vurulub".***

Bunu Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Dağlıq Qarabağdakı məscidlərin dağıdılması, viran edilməsi hallarına və buna dünya birliyinin biganə qalmasına münasibət bildirərkən deyib.

Komitə sədrinin sözlərinə görə, işğal olunmuş ərazilərdə çoxsaylı abidələrimiz, məscidlər, kitabxanalar, mədəniyyət evləri, o cümlədən tarixi etnoqrafik məskənlər, tarixi əhəmiyyət kəsb edən yerlər dağıdılıb, məhv edilib: "Bununla belə, ekologiyamıza böyük zərbə vurulub, meşələr yandırılıb və s. Bütövlükdə götürdükdə bütün bunlar ABŞ-ın, Avropa Şurasının, ATƏT-in qəbul etdiyi sənədlərə, konvensiyalara ziddir. Bunlar insanlıq əleyhinə törədilmiş cinayətlərdir. Əlbəttə, bu tipli cinayətlərə qarşı adekvat olaraq beynəlxalq təşkilatların müvafiq qərarlar verməsi, addımlar atması zəruridir".

M.Qurbanlı bildirib ki, ATƏT-in Faktaraşdırıcı missiyası bölgəyə dəfələrlə səfərlər edib: "Missiya Ermənistanın vurduğu ziyanlarla bağlı burada müəyyən məruzələr hazırlayıb. Bütünlüklə Ermənistanı ittiham edən, işğalçı ölkənin törətdiyi bu cinayətlərə görə rəsmi İrəvana qarşı beynəlxalq təşkilatlar tərəfindən hansısa sanksiyalar tətbiq edilməyib. Biz bunu qətiyyətlə pisləyirik. Bütün bunlar beynəlxalq təşkilatların ikili standartının nəticəsidir".

# DQİDK-da müşavirə keçirilib



Martın 6-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayevin iştirakı ilə ölkədəki mövcud dini duruma həsr olunmuş müşavirə keçirilib. Tədbirdə Dövlət Komitəsinin rəhbərliyi, eləcə də Mərkəzi Aparatın və bölgə şöbələrinin müdirləri iştirak ediblər.

Müşavirəni açan Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ölkəmizdə dini durum, icmaların qeydiyyat məsələləri, yeni icmaların yaradılması, dini maarifləndirmə sahəsində həyata keçirilən tədbirlər və müzakirə olunacaq məsələlər barədə ətraflı məlumat verərək qeyd edib ki, Dövlət Komitəsinin cari ildəki fəaliyyəti və dini durumun tənzimlənməsi baxımından bu müşavirə xüsusi əhəmiyyət kəsb edir.

Dövlət müşaviri Kamal Abdullayev görülmüş işlər, planlaşdırılan tədbirlər və qarşıda duran vəzifələrdən danışıb, həmçinin müvafiq tövsiyələrini verib.

Müşavirədə bölgə şöbə müdirləri dini durum, eləcə də görüləcək işlər bağlı məlumat veriblər. Dövlət Komitəsinin fəaliyyəti ilə bağlı digər məsələlər müzakirə edilib. Müşavirənin sonunda Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, bu formatda tədbirlərin mütəmadi keçirilməsi ümumi işin səmərəliliyinə və daha da yüksək nəticələr əldə edilməsinə xidmət edəcək.

# Oğuzda "Ənənəvi İslam dəyərləri və müasirlik" mövzusunda regional konfrans olub



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Oğuz Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə martın 13-14-də Oğuz şəhərində "Ənənəvi İslam dəyərləri və müasirlik" mövzusunda regional konfrans keçirilib.

Tədbirdə ölkəmizin şimal-qərb bölgəsində fəaliyyət göstərən dini icmaların sədrləri, imam və axundlar, həmçinin fəal dindarlar və ilahiyyatçılar iştirak ediblər.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Oğuz şəhərində ucaldılmış abidəsi önünə gül-çiçək düzüb, xatirəsini ehtiramla yad ediblər.

Tədbiri Oğuz Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Qurbanov açaraq ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyədə olduğunu, Ümummilli Lider Heydər Əliyev siyasətinin digər sahələrdə olduğu kimi, bu sahədə də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. Vurğulanıb ki, Azərbaycanda dünyaya nümunə ola biləcək tolerantlıq mövcuddur və ölkəmizdə müxtəlif dinlərin nümayəndələri azad şəraitdə yaşayırlar.

Konfransda DQİDK-nın sədri Mübariz Qurbanlı çıxış edərək, ölkənin müxtəlif regionlarında keçirilən belə tədbirlərin dövlət-din münasibətlərinin daha yüksək səviyyədə tənzimlənməsi, dini maarifləndirmə işinin təşkili, həmçinin dini icmaların cəmiyyətdə radikalizm meyillərinin qarşısının alınması və sosial problemlərin həlli prosesinə cəlb olunması məqsədi daşıdığını diqqətə çatdırıb. Komitə sədri bildirib ki, bu gün müstəqil Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə ciddi uğurlara imza atmaqdadır: "Azərbaycan sürətlə inkişaf edir, hər yerdə abadlıq, quruculuq işləri gedir. Ölkəmizin sosial-iqtisadi inkişafı yüksək səviyyəyə çatıb. Ermənistanın təcavüzü, ərazimizin 20 faizinin işğal altında olması və digər çətinliklərə baxmayaraq, Azərbaycan bölgədə güclü, lider dövlətdir. Azərbaycanın sosial-iqtisadi inkişafı Ulu Öndər Heydər Əliyevin başladığı böyük siyasətin davamı və məntiqi nəticəsidir".



DQİDK-nın sədri Mübariz Qurbanlı qeyd edib ki, Azərbaycan İslam dövlətlərinin içərisində özünəməxsus yeri və rolu olan ölkələrdən biridir. İslam ölkələri arasında Azərbaycanın xüsusi nüfuzu vardır. Bu gün Azərbaycan İslam Əməkdaşlıq Təşkilatında öz sözünü deyə bilən bir ölkədir: "Ölkəmizdə dünyaya nümunə ola biləcək tolerantlıq mövcuddur və müxtəlif dinlərin nümayəndələri azad şəraitdə yaşayırlar. Bunu Oğuz rayonunun timsalında da aydın görmək olar. Komitə sədri bildirib ki, Azərbaycan, eyni zamanda dünyaya inteqrasiya edən ölkədir. Bununla belə, xalqımız öz milli-mənəvi dəyərlərini də daim qoruyur".

Konfrans daha sonra işini plenar iclaslarla davam etdirib. Həmin gün DQİDK-nın sədri Mübariz Qurbanlı və rayonda səfərdə olan BMT-nin rezident əlaqələndiricisi Antonius Broek Oğuz şəhərindəki Cümə məscidinə, alban məbədi və sinaqoqlara baş çəkib, tarix-diyarşünaslıq muzeyi ilə tanış olublar.





## Mübariz Qurbanlı: Azərbaycana qarşı təxribat törətmək istəyən qüvvələrin qarşısı qətiyyətlə alınacaq

*"Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət sayəsində Azərbaycanın gücü və qüdrəti gündən-günə artır. Azərbaycana qarşı hansısa qüvvələr din vasitəsilə təxribat törətmək istəsələr, biz belə qüvvələrin qarşısını qətiyyətlə alacağıq".*

Bu sözləri Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Oğuz şəhərində keçirilən konfrans zamanı jurnalistlərə müsahibəsində deyib.

Komitə tərəfindən bu istiqamətdə təbliğat işinin daha da genişləndirildiyini diqqətə çatdıran Mübariz Qurbanlı qeyd edib: *"Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tərtib etdiyi tədbirlər planına uyğun olaraq bölgələrdə davamlı dini maarifləndirmə tədbirləri, "dəyirmi masa"lar keçirilir. Komitənin mütəxəssislərinin və dinşünas alimlərin iştirakı ilə keçirilən belə tədbirlərdə açıq söhbət aparılır. İştirakçılara dini dəyərlərimiz, milli adət-ənənələrimiz, eyni zamanda ölkəmizdə din sahəsində həyata keçirilən siyasət və onun istiqamətləri barədə ətraflı məlumat verilir. Belə tədbirlər maarifləndirmə baxımından önəmli rol oynayır".*

# Şamaxıda "Ənənəvi İslam dəyərləri və müasirlik" mövzusunda regional konfrans keçirilib




**Martın 10-da Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Şamaxı rayon İcra Hakimiyyəti ilə birgə təşkil etdiyi "Ənənəvi İslam dəyərləri və müasirlik" mövzusunda regional konfrans keçirilib.**

Konfransın ikinci günündə Şamaxı rayonunda fəaliyyət göstərən Kolleclərin, Müəllimlər İnstitutunun Şamaxı filialının tələbələri, rayonun gənc aktivləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Konfransın işi panellərlə davam etdirilib. "Ənənəvi dini dəyərlərimiz və xarici təsirlər" mövzusunda keçirilən birinci plenar iclas Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılovun moderatorluğu ilə baş tutub. Paneldə DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Niyaz Yaqubov "Azərbaycanda dini durum: Yaxın Şərqdə gedən proseslər kontekstində", ilahiyyatçı Tariyel Rəsulov isə "Zərərli dini cərəyanlar və onların təbliğat metodları: yeniyetmə və gənclərin radikal meyillərdən qorunması" mövzularında məruzə ilə çıxış ediblər.

Konfransın sonuncu plenar iclası "Milli-mənəvi dəyərlər və müasir çağırışlar" mövzusunda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlının moderatorluğu ilə keçirilib. DQİDK-nın Xarici əlaqələr, nəşriyyat və redaksiya şöbəsinin məsləhətçisi Oqtay Orucov "Azərbaycan gəncləri: sosial mediadadan necə istifadə edirik?" və DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin məsləhətçisi Ruslan Əsgərov "Milli-mənəvi dəyərlərimiz müasir gəncliyin formalaşmasında əsas komponent kimi" mövzularında məruzə ediblər.

Plenar iclaslarda dinlənilən məruzələr ətrafında müzakirələr aparılıb.

Bununla da ikigünlük regional konfrans öz işini başa çatdırıb.



## Nyu-Meksiko ştatının Nümayəndələr Palatası Azərbaycandakı tolerantlıqla bağlı qətnamə qəbul edib

ABŞ-ın Nyu-Meksiko ştatının Nümayəndələr Palatası martın 3-də keçirilən plenar iclasında Azərbaycanda yaradılmış tolerantlıq mühitini təqdir edən qətnamə qəbul edib.Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayev sənədin qəbulunda təşəbbüskar olan qanunvericilərlə əlaqə saxlayaraq onlara və Nümayəndələr Palatasının digər üzvlərinə təşəkkür edib, Azərbaycanın tolerantlıq sahəsindəki təcrübəsinin bütün dünya üçün nümunəvi model olduğunu bildirib.

Nümayəndələr Palatası tərəfindən yekdilliklə qəbul edilən qətnamədə Azərbaycanın tarixi tolerantlıq ənənələrinə toxunularaq, ölkəmizdə qədim zamanlardan müxtəlif dinlərin nümayəndələrinin, o cümlədən müsəlmanların, yəhudilərin və xristianların sülh və əmin-amanlıq şəraitində birgə yaşadıqları bildirilir. Həmçinin qeyd edilir ki, hazırda dünyanın müxtəlif bölgələrində dini radikalizm, terrorçuluq, dözümsüzlük və ksenofobiya kimi halların artdığı bir dövrdə Azərbaycan özünəməxsus tolerantlıq təcrübəsi ilə beynəlxalq ictimaiyyət üçün uğurlu bir tolerantlıq modeli təşkil edir. Qətnamədə o da vurğulanır ki, Azərbaycan rəhbərliyi ölkədə belə mütərəqqi mühitin inkişaf etdirilməsində böyük rol oynayır və bu prosesləri müxtəlif vasitələrlə dəstəkləyir. Eyni zamanda, 2015-ci il may ayında Azərbaycanda keçirilməsi nəzərdə tutulan üçüncü Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun önəminə yer verilərək bildirilir ki, ABŞ tolerant və dünyəvi dostlarını dəstəkləməli və Azərbaycanın tolerantlıq modelinin bütün dünyada tətbiqinə çalışmalıdır.

Qətnamədə bu sənədin surətinin ABŞ Prezidentinə, dövlət katibinə, Konqresinə, Nyu-Meksikonu Konqresdə təmsil edən senator və konqresmenlərə göndəriləcəyi bildirilir.

## ABŞ-ın daha bir ştatı Xocalı soyqırımını tanıdı



ABŞ-ın Yuta ştatının qubernatoru Qeri Herbert Xocalı soyqırımının ildönümü ilə bağlı martın 2-də məktub imzalayıb.

Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayevə ünvanlanmış məktubda qubernator Xocalı faciəsinin 23-cü ildönümü ilə əlaqədar bu qətliam zamanı uşaq və qadınlar da daxil olmaqla 600-dən çox insanın öldürüldüyünü bildirərək, Yutada, eləcə də bütün dünyada yaşayan azərbaycanlılara Yuta ştatının əhalisi adından başsağlığı verdiyini qeyd edir.

Məktubda bildirilir ki, bu faciəvi hadisə müharibə zamanı törədilən vəhşilikləri bir daha yada salır və müxtəlif dini, irqi, etnik, milli və mədəni kimliklərə məxsus insanlar arasında daha çox qarşılıqlı anlaşmanın, ünsiyyətin və dözümlülüyün nə qədər zəruri olduğunu göstərir.

Qeyd edək ki, bu, Yuta qubernatoru tərəfindən Xocalı qətliamının tanınması ilə bağlı imzalanmış ilk rəsmi sənəddir.

## Azərbaycanın ədəbiyyat və milli mətbəx paytaxtlarının təqdimatı olub

Martın 4-də Azərbaycan Xalça Muzeyində 2015-ci il üçün Azərbaycanın xalq yaradıcılığı paytaxtlarının təqdimat mərasimi keçirilib.

Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Fikrət Babayev layihə haqqında məlumat verib, xalq yaradıcılığı paytaxtlarının seçilməsinin əhəmiyyətindən danışıb. Bildirib ki, Azərbaycanın qeyri-maddi mədəni irsinin təbliği və təşviqi məqsədilə nazirlik tərəfindən həyata keçirilən "2010-2014-cü illər üçün Xalq Yaradıcılığı Paytaxtları" Proqramı çərçivəsində 5 il ərzində üç nominasiya üzrə 15 "paytaxt" elan edilib. Ötən müddət ərzində xalq yaradıcılığı paytaxtlarında müxtəlif səviyyəli bir sıra tədbirlər keçirilib.

Yeni proqramla əlaqədar 2015-ci il üçün Şamaxı şəhəri "Azərbaycanın ədəbiyyat paytaxtı", Qax şəhəri isə "Azərbaycanın milli mətbəx paytaxtı" elan edilib. Yeni paytaxtların elan olunması bölgələrdə mədəniyyət tədbirlərinin canlanmasına təkan verəcək.

Mərasimdə ötən il xalq yaradıcılığı paytaxtı olmuş Qəbələ, Balakən və Abşeron rayonlarının mədəniyyət və turizm şöbələrinin müdirləri Nargilə Qafarovaya, Ruqiyyət Seyidovaya və İlham Manafova illik tədbirlər planının icrasındakı məqsədyönlü fəaliyyətlərinə görə nazirliyin fəxri fərmanı təqdim olunub.

## Novruz bayramı UNESCO-da qeyd olunacaq

**Martın 24-də UNESCO-nun mənzil iqamətgahında Novruz bayramı qeyd olunacaq.**

Azərbaycanın, Qazaxıstanın, Qırğızıstanın, Türkmənistanın, Özbəkistanın, Türkiyənin, Monqolustanın və Rusiyanın türkdilli xalqlarının nümayəndələrinin iştirak edəcəkləri bayram şənliyinə 100-dən artıq incəsənət ustası qatılacaq.

Tədbirdə ölkəmizi estrada-folklor ansamblı və aşıq Əli Quliyev təmsil edəcək.

TÜRKSOY-un təşkilatçılığı, türkdilli xalqların, o cümlədən Azərbaycanın UNESCO yanındakı daimi nümayəndəliyinin dəstəyi ilə keçiriləcək bayram şənliyi çərçivəsində "Novruz rəngləri" adlı sərgi də təşkil olunacaq.

# Azərbaycan nümayəndə heyəti Türkiyədə səmərəli müzakirələr aparıb

*Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyədə rəsmi səfərdə olub*





**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının rəhbərlik etdiyi nümayəndə Türkiyə Cümhuriyyəti Diyanət İşləri başqanı Mehmet Görməzin dəvəti ilə bu ölkədə rəsmi səfərdə olub.**

Nümayəndə heyəti martın 2-də Türkiyənin Diyanət İşləri başqanı Mehmet Görmez ilə görüşüb.

Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətin dini qurumlara göstərdiyi qayğıdan danışan Mübariz Qurbanlı vicdan azadlığının təmin edilməsi, müxtəlif dini icmalar üçün yaradılan şərait, yeni ibadətgahların tikilməsi haqqında məlumat verib.

İslam aləmində baş verən bəzi mənfi hadisələrə toxunan Mehmet Görmez Azərbaycanın müxtəlif dini cərəyanların nümayəndələrinin birgə yaşaması sahəsində zəngin təcrübəyə malik olduğunu qeyd edib.

Daha sonra Diyanət İşləri İdarəsinin tərkibindəki təhsil xidmətləri və dini nəşrlər baş idarələrinin rəhbərləri ilə görüşən Azərbaycan nümayəndə heyəti Türkiyədə dini təhsil, din xadimlərinin yetişdirilməsi, eləcə də müvafiq nəşrlərin hazırlanması məsələləri ilə tanış olub.

Dini İşlər üzrə Ali Qurumun sədri Hüseyn Kayapınarla görüşdə isə Azərbaycan nümayəndə heyətinin üzvlərinə qurumun strukturu və fəaliyyət istiqamətləri haqqında məlumat verilib.

Tərəflər Azərbaycan ilə Türkiyənin dini qurumları arasında təcrübə mübadiləsi, eləcə də mənəvi dəyərlərin qorunması və inkişafı sahəsində əməkdaşlığın önəmini vurğulayıblar.





Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyə Respublikasındakı səmərəli görüşləri martın 3-də davam edib. Həmin gün Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Cəmil Çiçək nümayəndə heyətimizlə görüşüb.

Görüşdə iki qardaş ölkə arasındakı münasibətlər ətraflı fikir mübadiləsi aparılıb.

Sonra Mübariz Qurbanlı və nümayəndə heyətinin üzvləri Türkiyə Baş nazirinin müavini Bülənd Arınçla görüşüblər.

Bülənd Arınç Azərbaycan ilə Türkiyə arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə yüksək səviyyədə olan əlaqələrlə yanaşı, milli-mənəvi dəyərlərin qorunması və doğru təbliği istiqamətində də əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

Mübariz Qurbanlı isə öz növbəsində qeyd edib ki, Azərbaycan bütün sahələrdə Türkiyə ilə münasibətlərin inkişafına xüsusi önəm verir.

Səfər çərçivəsində TBMM-in İnsan Hüquqları Komissiyasının sədri Ayxan Səfər Üstün və Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Necdət Ünüvar ilə görüşlər keçirən nümayəndə heyətimiz Ankara Universitetinin ilahiyyat fakültəsində və Ankara Müftülüyündə də olub.



Görüşlərdə Türkiyədə dini xadimlərin yetişdirilməsi, İslam dininin tədrisi, dünyada doğru təbliği və digər məsələlər barədə geniş fikir mübadiləsi aparılıb.

Diqqətə çatdırılıb ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda din sahəsinə göstərdiyi həssas yanaşma bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, ölkəmizdə yeni ibadətgahlar inşa edilir, milli-mənəvi dəyərlərin qorunmasına xüsusi diqqət yetirilir.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyə Respublikasına rəsmi səfəri martın 4-də başa çatıb.

# Bakı Slavyan Universitetində multikulturalizm kafedrası yaradılıb

**Bakı Slavyan Universiteti (BSU) elmi şurası bu ali məktəbdə multikulturalizm kafedrasının yaradılması haqqında qərar qəbul edilib.**

Universitetin elmi şurasının üzvü, akademik Kamal Abdullayevin təşəbbüsü ilə yaradılmış kafedrada bu ali məktəbin bütün ixtisaslarında bakalavriat pilləsində multikulturalizmə giriş, regionşünaslıq (ölkəşünaslıq) ixtisasında, ixtisas ölkələrinin mədəniyyəti və incəsənəti, ixtisas ölkələrinin etnoqrafiyası, ixtisas ölkələrinin ictimai fikir tarixi, ixtisas ölkələrinin etnopsixologiyası, müqayisəli ədəbiyyat və digər fənlər tədris olunacaq. Magistratura pilləsində isə Azərbaycan multikulturalizmi fənni ilə yanaşı, ədəbi komprotivistika və müxtəlif ixtisaslaşmalara uyğun fənlərin tədrisi nəzərdə tutulur. Bundan əlavə, kafedrada multikulturalizm üzrə buraxılış işləri, magistr və doktorluq dissertasiyalarının yerinə yetirilməsi planlaşdırılır. Kafedranın tərkibi yuxarıda adları çəkilən sahələr üzrə kifayət qədər elmi-pedaqoji təcrübəyə malik mütəxəssislərdən formalaşdırılıb. Bu kafedranın əməkdaşları Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyinin və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin həyata keçirdiyi layihələrdə də fəal iştirak edəcəklər.



# Mübariz Qurbanlı: Tələbəlik illərindən siyasətin içərisindəyəm

**YAP İcra katibinin müavini, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının yap.org.az-a müsahibəsi**

**- Mübariz müəllim, Siz YAP İcra katibinin müavini, eləcə də, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədrisiniz. Bu titulların sayını artırmaq olar. Uşaqlıqda arzuladığınız peşəyə sahib ola bilmisinizmi?**

- Əvvəla qeyd edim ki, uşaqlıq dedikdə, insan 4-5 yaşlarından ətraf mühiti dərk etməyə başlayır və ən azından bu yaşdan sonra hadisələr yaddaşa hopur. Məktəb həyatında da baş verən bəzi hadisələr onun həyatında əbədi qalır. Elə hadisələr var ki, insanın yaddaşından silinir. Eləsi var ki, silinmir. Xüsusilə uşaqlıq dövründə baş verən hadisələr daha çox yaddaşda yer tutur. Əlbəttə, istənilən uşağın düşüncəsində müəyyən müddət ərzində dəyişikliklər baş verə bilər. Ümumiyyətlə, psixoloqların dediyinə görə, insanların xarakteri 12 yaşa qədər formalaşır. Və bu xarakter bütün ömür boyu cüzi dəyişikliyə məruz qalır. İnsan xarakterini tam saxlayır, bəzən mühit də buna təsir göstərə bilər. Amma xarakter anlayışı genlə bağlı olan məsələdir. Ona görə də, xarakter dəyişməzdir.

Orta məktəbdə oxuduğu dövrlərdə uşaqlara ətrafda olan insanlar belə sual verirlər ki, böyüyəndə nə olacaqsan? Belə sualları indi biz də uşaqlara veririk. Əlbəttə, uşaqlığın ilk dövrlərdə seçdiyi peşə heç də adekvat olmur, sadəcə ətrafda oxşamaq istədiyi adamın peşəsini deyir. Uşaq vaxtlarında bu sual mənə də verilib. Mən xatırlayıram ki, bu cür suallar veriləndə mən müəllim olmaq istədiyimi demişəm.

**- Bu arzunuza çatmısınız. Yəni uzun müddət müəllim işləmisiniz...**

- Mən müəllim ailəsində böyümüşəm. Yəqin ona görə də həmin suallara belə cavab vermişəm.

Arzuma çatmaq baxımından desək, bəli, 1978-ci ildə Bakı Dövlət Universitetini bitirdikdən sonra üç il orta məktəbdə dərs demişəm. Aspirantura təhsilindən sonra isə ali məktəbdə müəllim kimi fəaliyyət göstərmişəm.

Həyatın müxtəlif mərhələlərindən keçərək bu vəzifəyə gəlib çatmışam.

**- Bəs Mübariz Qurbanlı siyasətə necə gəldi?**

- Mən orta məktəbin 8-ci sinfinə qədər öz kəndimizdə, Şəmkir rayonu Kotənəli kəndində oxumuşam. 8-ci sinfi tərifnamə ilə bitirmişəm. O zaman belə bir qayda var idi ki, 8-ci sinfi tərifnamə ilə bitirənlər texnikumlara imtahansız daxil ola bilirdilər. Mən o zaman Gəncə Politexnik Texnikumunun Avtomobil nəqliyyatının istismarı şöbəsinə daxil oldum. 8-ci sinfi bitirəndə 14 yaşın içində idim. 3 il texnikumda oxudum, buranı da fərqlənmə diplomu ilə bitirmişəm. Sonra isə istehsalatda çalışmışam. Daha sonra Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin) tarix fakültəsinə daxil olmuşam, bu təhsil müəssisəsini də fərqlənmə diplomu ilə bitirmişəm.

Siyasətə gəlməyimə gəlincə isə, ali təhsilim sırf siyasətə bağlı ixtisasdır. Görünür, humanitar elmə marağım çox olub. Dediyim kimi, müəllim ailəsində böyümüşəm, evimizdə zəngin kitabxana olub. Eyni zamanda, kəndimizin də gözəl kitabxanası var idi. Mən kiçik yaşlarımdan çoxlu bədii ədəbiyyat oxuyurdum, azərbaycanlı və xarici yazıçıların əsərlərini 8-ci sinfi bitirənədək oxumuşdum. Humanitar elmlərə, xüsusilə tarix elminə həvəsim böyük olub. BDU-da 1970-ci illərdə qaynar siyasi mühit var idi. Mən də 1973-78-ci illərdə burada ali təhsil almışam. Baxmayaraq ki, keçmiş SSRİ-də təkpartiyalı sistem idi, amma seçdiyim ixtisas, oxuduğumuz kitablar, xüsusilə fakültədəki mühit bizdə çoxlu suallar doğururdu. Sualların cavabları isə siyasiləşmiş idi. Doğru cavab olsaydı, dövlətin marağına uyğun ola bilməzdi. Məsələn, o dövrdə Azərbaycan tarixi tədris olunurdu, orada gözlə görünən ağ yalanlar var idi. Məsələn, Azərbaycanın Rusiyaya birləşməsi ilə bağlı. Tarix dərsliyi o dövrdə bunu az qala toy-bayram kimi təsvir edirdi. Yəni işğalı birləşmək kimi təqdim edirdilər. Bu da tələbələrdə suallar yaradırdı. Azərbaycan tarixi dərslərində Xalq Cümhuriyyəti haqda məlumat verilmirdi. Əks mövqedə təqdim olunurdu qısaca. Məntiqlə hiss edirdik ki, bu düz deyil. Müəllimlər isə yalnız fasilə vaxtı həqiqəti deməyə cəhd edirdilər. Amma bu da onlar üçün riskli idi.

Yəni fakültəmiz siyasiləşmiş olduğuna görə burada təhsil alan tələbələrin əksəriyyəti siyasi proseslərdə mütləq iştirak edirdi. Onların bir çoxu ali təhsili başa vurduqdan sonra yüksək vəzifələrə gedirdilər. Eyni zamanda, sonradan milli azadlıq hərəkatına da qoşulanlar var idi.

Ümumiyyətlə, humanitar fakültələrin tələbələri daha çox siyasətə meylli idilər. Tələbəlik illərində siyasi proseslərin içərisində idik.

Siyasətə gəlişim isə belə oldu ki, xalq hərəkatı başlananda mən də bu prosesə qoşuldum, xalqla birgə idim. Siyasi partiyalar formalaşanda isə ilk olaraq Milli İstiqlal Partiyasının üzvü, sonra katibi olmuşam. 1993-cü ildə o partiyadan istefa vermişəm və Ulu Öndər Heydər Əliyevin siyasətini dəstəkləmişəm. YAP yarandığı vaxt mən AMİP-in katibi idim. Amma Ulu Öndər Heydər Əliyevin apardığı siyasət əslində bütün partiyaların fəaliyyətinin fövqündə dayanan bir siyasət idi. Bu siyasətə digər partiyaların nümayəndələri də qatılıblar. Mən də Azərbaycanı xilas edən lider kimi Heydər Əliyevin siyasətini qəbul etmişəm. Bu, doğru seçim idi. Milli maraqlar Heydər Əliyev siyasəti ilə üst-üstə düşdüyü üçün xalq bu siyasətin arxasınca gedirdi. Bu gün də milyonlarla insan bu siyasətin arxasınca gedir.

**- Sizi siyasətçi kimi yaxşı tanıyırıq. Rəhbərliyiniz altında işləyən insanlar Sizi qayğıkeş, mülayim şəxs kimi qəbul edirlər. Bəs Mübariz Qurbanlı ailədə necədir?**

- Mən sizə bayaq dedim, insanın xarakteri 12-13 yaşlarında formalaşır. Mühit də bəzi təsirlərini göstərir. Amma xarakterin nüvəsi dəyişməz qalır. Mən altruist, yəni özünü başqasının yolunda fəda edən insan deyiləm. Amma həmişə qarşı tərəfi düşünürəm. Qarşılıqlı hörmətə tərəfdaram, dialoq tərəfdarıyam. Məntiq mənim ziddimədirsə, mən onu qəbul edirəm. Öz səhvimi gördükdə onu etiraf etməkdən heç vaxt çəkinmirəm.

Həmişə ədalətin tərəfində olmaq yaxşı hal deyil. Sadaladığım amillər ailədə sağlam mühitin olması üçün vacib şərtdir.

**- Siz uzun müddət müəllimlik fəaliyyəti ilə məşğul olmusunuz. Bu müddətdə gənclərlə daha çox işləmisiniz. Eləcə də YAP İcra katibinin müavini olaraq da gənclərlə sıx ünsiyyətdəsiniz, həm də ailədə də iki oğul atasısınız. Necə hesab edirsiniz, Sizin dövrün gəncliyi ilə indiki gənclər arasında fərq hansı səviyyədədir?**

- Çox dərin sualdır. Nəsillərarası ziddiyyət, nəsillərarası varislik deyilən bir anlayış var. Nəsillər bir-birini əvəz edir. Bu, təkcə mexaniki əvəzetmə deyil, həm də, keyfiyyətcə əvəzetmədir. Nəsillər dedikdə, baba-nənə, övlad və nəvə, yəni bu üçlük əsas götürülməlidir. Məsələn, ata ilə oğulun həyata baxışı elə də fərqlənmir. Amma nəvə ilə babanın həyata baxışı daha çox fərqlənir. Hazırda tez-tez səslənən «Bizim vaxtımızda belə deyildi», «indiki nəsillər başqa cür düşünür» fikirləri təsadüfi deyil. Əgər indiki gənclikdən tələb etsək ki, bizim dövrün gəncliyi kimi yaşasın və düşünsün, bu doğru olmazdı. Hər nəslin öz missiyası var. Hər nəsil də öz missiyasını yerinə yetirmək üçün fəaliyyət göstərir. Mənim gənclik illərimdə rəngli televizor, mobil telefon yox idi. İndiki kimi informasiya mübadiləsi sürətlə getmirdi. Mənim dövrüm ilə müqayisədə indiki gəncliyin düşüncəsində böyük fərq var. Məsələn, bizim o zaman müəyyən adətlərlə əlaqədar oynadığımız oyunları indikilər heç vaxt etmirlər. İndi yeni düşüncəyə uyğun oyunlara üstünlük verilir. Dərslərə hazırlaşmaq üçün kitabxanalara gedirdiksə,



mənim üçün əsas kriteriyadır. Ailədə də ədalətli olmalısan. Ailə üzvlərinə qarşı da belə olmalıdır. Ailədə kişinin aparıcı rolu danılmazdır. Çünki ailədə bütün məsələlərə cavabdeh kişidir. Hətta qadın üstün vəzifə tutmuş olsa da, qazancı daha çox olsa da, evdə kişinin nüfuzu olmalıdır. Bu olmasa, övladların tərbiyəsinə mənfi təsir göstərə bilər. Hesab edirəm ki, bu kriteriyadan çıxış etsək, mən ailədə hegemon, diktat şəkildə mövqe ortaya qoyan adam deyiləm. Ailədə hər şey məsləhət, fikir mübadiləsi ilə olmalıdır. Ailə mənəvi birlikdir, vahid məqsəd ətrafında birləşməkdir. Ailə marağı deyilən anlayış var. Bu, bir şəxsin yox, bütün ailə üzvlərinin fikirlərini əks etdirməlidir. Bu mənada, bizim ailədə belə bir mühit var.

Övladların təhsili, ailə qurmaq seçimi də təbii ki, məsləhətlər çərçivəsində olmalıdır. Doğrudur, valideyn olaraq onların seçimlərinə hörmətlə yanaşırıq, amma bu məsələlərdə öz tövsiyələrimizi verməliyik. Bu tövsiyələr nəticəsində övlad öz düşüncəsində müəyyən dəyişiklik edə bilər. İnsan cəmiyyətinin azadlığının bir hüdudu olduğu kimi, ailədə də hüdudlar var. Ailə maraqları bu hüdudlardan kənarda özünə yer tapmamalıdır. Ailədə mütləq qarşılıqlı inam və hörmət qorunmalıdır. Diktat mövqe

# Mübariz Qurbanlı: Tələbəlik illərindən siyasətin içərisindəyəm

indiki gənclik bir kitabxananı bir kompüterə yerləşdirir. İndi daha çox fərdiləşmə var. Əvvəllər ictimai nəqliyyatda hamının əlində kitab, qəzet var idi. İndi isə daha çox telefon var. Yəqin bundan sonrakı nəsil indikindən bir az da fərqli olacaq.

Bizim dövrümüzdə İstanbulu, Təbrizi, Londonu görməyi yalnız xəyal edə bilərdik. Amma indi istənilən vaxt istənilən yerə getmək mümkündür. Hazırda mədəniyyətlərarası, sivilizasiyalararası münasibətlər o qədər intensivləşib ki, indiki gənclik tamamilə əvvəlki nəsildən fərqlənir. Buna görə indiki gəncliyi qınamaq doğru deyil. Bu, onun dövrüdür, missiyasıdır. Bu missiya milli adət-ənənələrə və milli maraqlara zidd olmamalıdır. Mən indiki gəncliyə böyük inamla baxıram. Hesab edirəm ki, onlar öz tarixi missiyalarını böyük uğurla yerinə yetirəcəklər.

**- Mübariz müəllim, hazırda dünyada mürəkkəb proseslər baş verir. Xüsusilə müsəlman ölkələrində gərginlik yaşanır, İslam dinini gözdən salmaq üçün kampaniyalar aparılır. Belə bir dövrdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə sədr təyin olundunuz...**

- Bu təyinat mənim üçün gözlənilməz oldu. Biz Heydər Əliyev siyasətinin, YAP-ın əsgərləriyik. Möhtərəm Prezidentimiz İlham Əliyev hansı vəzifəyə etimad göstərirsə, bu bizim üçün böyük şərəfdir. Prezidentimiz Azərbaycanın lideri kimi İslam dünyasında, beynəlxalq aləmdə, dövlət başçıları arasında böyük nüfuza malik olan şəxsiyyətdir. Prezidentimizin fəaliyyəti təkcə Azərbaycanla məhdudlaşmır, bütövlükdə region, dünyadakı proseslərə də fəal münasibət bildirir. Bir çox ölkələrin başçıları Prezidentimizə lider olaraq dərin hörmət bəsləyir, region, İslam dünyası ilə bağlı onunla hesablaşırlar.

Cənab Prezident kimə etimad göstərirsə, bu həmin şəxs üçün böyük şərəfdir. Mən Komitəyə sədr təyin olunana qədər tarixçi olduğum üçün İslam dünyası, eləcə də digər dinlərlə də bağlı bilgilərə malik idim. Bunlar aparacağım işlərə təsir göstərir. Bu, siyasi vəzifədir, burada mütəxəssislər çalışır. Eyni zamanda, mütəxəssislər hazırlanır. Biz Prezidentimiz tərəfindən müəyyən olunmuş siyasi xətti icra edirik. Komitənin sədri kimi Prezidentimiz İlham Əliyevin bu sahədə həyata keçirdiyi siyasətdə iştirak edirəm. Dövlətin digər qurumları ilə birgə hərəkət edirik. Xüsusilə Prezident Administrasiyası burada mühüm əhəmiyyətli istiqamətlər verir. Eyni zamanda, Qafqaz Müsəlmanları İdarəsi ilə sıx əməkdaşlıq edirik, din xadimlərimizlə, dinşünas alimlərimizlə birgə çalışırıq. Komitəmizin fəaliyyət proqramı var ki, bunu həyata keçiririk.

Azərbaycan üçün vacib nədir? Ənənəvi İslam dəyərlərini qoruyub saxlamalıyıq. və İslama qarşı yaranmış olan islamofobiyanın mahiyyətini açmalıyıq, eyni zamanda radikal qrupların Azərbaycanda hər hansı bir formada yer tapmasına, ayaq açmasına yol verməməliyik. Çünki bizim ənənəvi dini dəyərlərimiz var. Nəsildən-nəsillərə ötürülən adətlərimiz var və bunu qorumalıyıq. Bizim üzərimizə düşən bu işlər tərəfimizdən yerinə yetirilir. Prezidentimizin siyasətinin yerinə yetirilməsi üçün əlimizdən gələni əsirgəməyəcəyik.

**- YAP qarşıdan gələn parlament seçkiləri ilə bağlı hazırlıq işlərinə start verib. Partiyanın İcra katibinin müavini kimi bu haqda nə deyə bilərsiniz?**

- YAP istənilən vaxt seçkilərə hazır olan partiyadır. Bunu deməyə əsasımız var. Çünki partiyanın həm üzvlərinin sayı, həm keyfiyyəti, həm də bölgələr üzrə təşkilatlanması yüksək səviyyədədir. Eyni zamanda, YAP-ın rəhbərliyi, şəxsən Sədrimiz cənab İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsi istiqamətində bütün tədbirlər həyata keçirilir. YAP-ın ideoloji, təşkilati, beynəlxalq əlaqələr və s. istiqamətlərdə gördüyü işlər o qədər çoxdur ki, saymaqla qurtarmaq olmaz. Burada tam təşkilatlanmış, güclü mexanizm var. Partiyanın bütün strukturları saat mexanizmi kimi çalışmaqdadır. Belə olan şəraitdə partiyanın seçkilərə getməsi və qələbə qazanması aksiomadır.

YAP-ın hər seçkini udmasının başlıca səbəbi partiyanın Ulu Öndər Heydər Əliyevin ideyalarına söykənməsidir və Sədrimiz, Prezident İlham Əliyevin siyasətinin xalq tərəfindən birmənalı olaraq müdafiə olunmasıdır.

Bu gün Prezidentimizin siyasəti nəticəsində xalqla hakimiyyət arasında vəhdət mövcuddur. Ona görə də YAP-ın seçkilərə qatılması o qədər çətin deyil. YAP təşviqat zamanı deməyə sözü olan partiyadır. Parlament seçkiləri ilə əlaqədar hazırlıq işləri də davam etməkdədir. Biz rayon və şəhər təşkilatları sədrlərinin toplantısını keçirmişik. Digər cari işlər də görülməkdədir. Hesab edirəm ki, namizədlərimiz seçkilərdə ciddi uğurlar əldə edəcəklər. Namizədlərin irəli sürülməsi prosesi rəhbərlik tərəfindən müəyyənləşdiriləcək və zamanında ictimaiyyətə məlumat veriləcək.

**- Xalqımız Novruz bayramı ərəfəsindədir. Bayram arzularınız nədir?**

- Novruz xalqımızın ən qədim bayramlarından biridir. Bu bayramın dinlə əlaqəsi yoxdur. Bayram yeni ilin gəlişi bayramıdır. Əslində bəşəriyyətdə həmişə yeni ilin gəlişi baharın gəlişi ilə olub. Qədim Romada, Yunanıstanda, Misirdə, Hindistanda yeni ili baharın gəlməsi ilə qeyd ediblər. Çünki baharda həyat canlanır, torpaq oyanır və s. Ona görə Yeni il kimi qeyd olunub.

Novruz - yeni gün deməkdir. Bu, çox gözəl bayramdır. Bayram münasibətilə bütün xalqımızı, o cümlədən YAP-ın üzvlərini təbrik edirəm, insanlara cansağlığı, uğurlar, bahar təravəti, rifah arzulayıram. Biz güclü dövlət qurmuşuq, ölkəmiz inkişaf edir. Möhtərəm Prezidentimiz başda olmaqla Azərbaycan xalqı bu bahar bayramını yeni-yeni uğurlarla qeyd edir. Bir daha bütün ölkə vətəndaşlarını Novruz bayramı münasibətilə təbrik edirəm.

# "İşğal altında qalan abidələrimiz: vurulmuş ziyanın qiymətləndirilməsi" mövzusunda konfrans keçirilib

**Martın 5-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Azərbaycan Respublikası Ərazilərinin Ermənistan Silahlı Qüvvələrinin İşğalı Nəticəsində İtki və Təlәfatların Qiymətləndirilməsi üzrə İşçi Qrupu ilə birgə "İşğal altında qalan abidələrimiz: vurulmuş ziyanın qiymətləndirilməsi" mövzusunda konfrans keçirib.**

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Azərbaycan Respublikası Ərazilərinin Ermənistan Silahlı Qüvvələri Tərəfindən İşğalı Nəticəsində İtki və Təlәfatların Qiymətləndirilməsi üzrə İşçi Qrupunun rəhbəri, millət vəkili Xanhüseyn Kazımlı, müvafiq dövlət qurumlarının əməkdaşları, QHT rəhbərləri, dini konfessiyaların nümayəndələri, alimlər və ictimaiyyətin təmsilçiləri iştirak ediblər.




Konfransı giriş sözü ilə açan Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı işğal altındakı abidələrimizdən danışaraq qeyd edib ki, Ermənistan tərəfindən maddi-mədəniyyət abidələrimizə qarşı törədilən vandalizm hərəkətləri, işğal altındakı bütün maddi irsin məhv edilməsi faktları dünya ictimaiyyətinə çatdırılmalıdır. Dövlət Komitəsinin sədri bildirib ki, işğal olunmuş ərazilərimizdə çoxlu sayda həm tarixi, həm də dini abidələrimiz məhv edilib. Onların içərisində məscidlər, kitabxanalar və mədəniyyət ocaqları var. Dağıdılan abidələr arasında yalnız müsəlman abidələri deyil, eyni zamanda xristian alban məbədləri də var.

Millət vəkili Xanhüseyn Kazımlı konfransda əsas məruzə ilə çıxış edərək bildirib ki, erməni vandalizminin geniş vüsət aldığı indiki şəraitdə işğal altındakı ərazilərdə tarixi mədəni irsin tədqiqini, habelə onların Beynəlxalq Qiymətləndirmə Standartlarına əsasən dəyərləndirilməsini zəruri edir. O qeyd edib ki, memarlıq abidələri içərisində ermənilər tərəfindən ən çox dağıntılara və tələfata məruz qalan İslam dini abidələri, yəni məscidlər, türbələr, ziyarətgahlar və digər inanc yerləri olmuşdur. Ermənilərin bütün bu vandallıqları Azərbaycanın işğal altındakı tarix və mədəniyyət abidələrinə dəyən zərər beynəlxalq standartlara uyğun qiymətləndirilməlidir.

Konfransda bildirilib ki, işğal olunmuş ərazilərdə dövlət qeydiyyatında olan tarix və mədəniyyət abidələrinin sayı 901, dövlət qeydiyyatında olmayan abidələrin sayı 1500, beynəlxalq əhəmiyyətli abidələrin sayı 13, qəbiristanların sayı 900 ədəddir.

Daha sonra Tarix və Mədəniyyət abidələri üzrə İctimai Birliyin sədri, İtki və Təlәfatların Qiymətləndirilməsi üzrə İşçi Qrupunun üzvü Faiq İsmayılov, MAK Consaldinq-Bakı LTD-nin baş direktoru, İtki və tələfatların qiymətləndirilməsi üzrə İşçi Qrupunun üzvü Zamin Hüseynov, «MBA LTD» Qiymətləndirmə şirkətinin prezidenti, Sosial-iqtisadi və Ekoloji İnkişaf Birliyinin sədri Rahilə Mehdiyeva çıxış etmişlər.

# Mübariz Qurbanlı: Dini radikalları çökdürəcəyik

*Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının Trend-ə müsahibəsi*

**- Son zamanlar Azərbaycanda radikal dini təmayüllü qrupların, xüsusən sələfi-vəhhabi, xəvarici cərəyanlarının ardıcıllarından ibarət mütəşəkkil dəstələrə qarşı hüquq-mühafizə orqanları tərəfindən keçirilən əməliyyatlar barədə nə deyə bilərsiniz?**

- Son vaxtlar radikal dini qrupların fəaliyyətinin məhdudlaşdırılması və aradan qaldırılması üçün çox böyük işlər aparılıb. Artıq bu yöndə Azərbaycanın hüquq-mühafizə orqanlarının, eləcə də ideoloji qurumların apardığı işlər öz mühüm nəticələrini verir. Qoy bilsinlər ki, onlara qarşı bu mübarizə bir an belə dayandırılmayacaq! Biz ölkəmizdə həmin radikal qrupları tam aradan qaldırana qədər bu işləri davam etdirəcəyik.

Azərbaycan İslam ölkəsidir. Bizim dini dəyərlərimiz, milli adət-ənənələrimiz var. Biz tarixən nəsildən-nəslə ötürülən bu dəyərləri qorumalı və yaşatmalıyıq. Azərbaycan dövləti, onun başçısı cənab İlham Əliyev bu dəyərləri qorumaq üçün çox böyük işlər həyata keçirir. Biz ölkəmizdə hər hansı radikal qrupların fəaliyyət göstərməsinə imkan vermirik və verməyəcəyik də! Çünki bu, cəmiyyətimizin, milli adət-ənələrimizin, söykəndiyimiz İslami dəyərlərin istəyidir.

**- Bir müddət əvvəl Trend-ə bildirmişdiniz ki, həmin qrupların maliyyə mənbələrinin, iqtisadi resurslarının aşkar edilməsi və onların qarşısının alınması ilə bağlı tədbirlər görüləcək. Bununla bağlı hər hansı yeniliklər var? Maliyyələşmə əsasən haradan, kimlər və hansı sahələr vasitəsilə həyata keçirilir?**

- Biz bu yaxınlarda Türkiyədə səfərdə olarkən özümüz üçün maraqlı bir məsələni aydınlaşdırdıq. Bizə bildirildi ki, orada radikal dini qruplar, demək olar ki, yoxdur. Əgər varsa belə, onlar həlledici rol oynaya, məscidlərə, cəmiyyətə ciddi təsir göstərə bilmirlər. Bunun əsas səbəblərindən biri Türkiyədə ənənəvi İslam dəyərlərinin təbliği və təşviqi işinin dövlət səviyyəsində geniş şəkildə aparılmasıdır. Fikrimcə, orada əldə etdiyimiz bu təcrübədən mütləq yararlanacağıq.

Azərbaycanda isə radikal dini qruplara qarşı mübarizədə 3 istiqamət müəyyən edilib. Bunlardan birincisi qanun çərçivəsində həyata keçirilən istiqamətdir ki, burada hüquq-mühafizə orqanları aparıcı rol oynayır. Bura Daxili İşlər Nazirliyi (DİN), Milli Təhlükəsizlik Nazirliyi (MTN), prokurorluq orqanları və hüquq-mühafizə sistemindəki digər qurumların fəaliyyəti daxildir. Bu qurumlar radikallaşmış dini qruplar tərəfindən qanun pozuntusuna yol verildiyi təqdirdə onların neytrallaşması və qanun qarşısında cavab verməsi istiqamətində ciddi addımlar atırlar. Buna misal olaraq, MTN və DİN tərəfindən son dövrlərdə təşkilatlanmış silahlı şəbəkə yaradan, eləcə də Azərbaycan vətəndaşlarını xarici ölkələrdəki silahlı münaqişələrə cəlb edən radikal qrupların aşkar edilərək zərərsizləşdirilməsini göstərmək olar. Bundan əlavə, radikal qrupların qeyri-qanuni fikirlərini ifadə edən ədəbiyyatın yayılmasının qarşısının alınması məqsədilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Milli Təhlükəsizlik Nazirliyi birgə geniş tədbirlər həyata keçirir.

Digər istiqamət isə iqtisadiyyat sahəsi ilə bağlıdır. Radikal qrupların bəziləri qeyri-qanuni yollarla vəsait ələ keçirərək onun vasitəsilə gənclərin radikal qruplara cəlb edilməsinə, şəbəkələrin yaradılmasına cəhdlər göstərirlər. Təbii ki, bu, yolverilməzdir.

**- Qeyri-qanuni yollar deyərkən əsasən nəyi nəzərdə tutursunuz?**

- Qeyri-qanuni yollar deyəndə, məsələn, xaricdəki qüvvələr tərəfindən radikal dini qruplara vəsait göndərilməsi,



həmin qruplar vasitəsilə pulu əvvəlcədən ödənilməyən malların Azərbaycana gətirilərək burada yayılması və tərəfdarları vasitəsilə satışa çıxarılması, malların müftə verilməsindən istifadə edərək onlardan əldə edilən gəlirlərdən təkrarən qeyri-qanuni ədəbiyyatın əldə olunması və satışı, eyni zamanda bu cür vəsaitdən istifadə edərək gənclər arasında tərəfdarların toplanması, onların şirnikləndirilməsi, silahlı birləşmələrə və xaricdəki silahlı münaqişələrə cəlb edilməsi və həmin vəsaitlərdən onların maliyyələşdirilməsi üçün istifadə edilməsini nəzərdə tuturam.

Lakin onların bu mənfur məqsədlər üçün iqtisadi yollarla əldə etdikləri gəlirlərin qarşısı alınır və bundan sonra da alınacaq. Bu istiqamətdə Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Maliyyə Nazirliyi və digər dövlət qurumları müvafiq işlər aparırlar ki, kimlərsə qeyri-qanuni yolla Azərbaycana vəsait gətirərək onları burada konstitusion sistemin əleyhinə yönəldə bilməsinlər. Bu cür vəsaitlərin Azərbaycana qeyri-hökumət təşkilatları adı altında fəaliyyət göstərən qurumlar tərəfindən gətirilməsinin qarşısının alınması üçün də artıq qanunvericilikdə müvafiq dəyişikliklər edilib.

**- Bəs qeyd etdiyiniz üçüncü istiqamət hansıdır?**

- Üçüncü istiqamət ideoloji-təbliğat yolu və bu yolla radikalların bazasının çökdürülməsidir. İdeoloji-təbliğat yolu əsl İslam dəyərlərinin təşviq və təbliğ edilməsindən, maarifləndirmə işlərinin həyata keçirilməsindən ibarətdir. Biz bu məsələdə Qafqaz Müsəlmanları İdarəsi ilə birgə fəaliyyət göstəririk. Bu iş kütləvi informasiya vasitələri, müxtəlif konfranslar, seminarlar və digər tədbirlər vasitəsilə həyata keçirilir. Topladığımız təcrübə əsasında maarifləndirmə işlərini daha yüksək səviyyəyə qaldırmağı planlaşdırırıq.

**- Bəzən sosial şəbəkələrdə bəzi radikal qruplara məxsus mağazalarda, supermarket şəbəkələrində digər məzhəb və ya təriqətlərə mənsub insanlar tərəfindən istehsal edilən məhsulların qəbulundan və satışa çıxarılmasından imtina edildiyinə və ya buna əngəllər yaradıldığına dair məlumatlar yayılır. Bu məsələ ilə bağlı hansı tədbirlər görüləcək?**

- Hesab edirəm ki, belə şeylər yolverilməzdir. Belə hallar ortaya çıxdıqca onların qarşısı alınır və alınacaq. Yəni din pərdəsi altında öz iqtisadi maraqlarını həyata keçirmək istəyən qüvvələrə qarşı qətiyyətli, sərt tədbirlər görüləcək. Biz, həmçinin din əbası altında siyasi maraqlarını ifadə etmək istəyənləri, eləcə də ideoloji yolla Azərbaycanda ənənəvi dəyərlərə qarşı çıxanları mütləq çökdürəcəyik. Azərbaycanda dini radikallara qarşı sonadək "çökdürmə siyasəti" aparılacaq.

## "Radikal dini qruplaşmaların qarşısının alınması davam edəcək"

***Bu sözləri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Milli Təhlükəsizlik Nazirliyinin ölkədə dini dövlət qurmaq niyyətində olan mütəşəkkil dəstənin zərərsizləşdirilməsi barədə yaydığı məlumata münasibət bildirərkən deyib.***

Komitə sədri qeyd edib ki, İslam ölkəsi olan Azərbaycanın İslami dəyərləri, milli adət-ənənələri var: "Tarixdən bizə əxz olunan, nəsildən nəslə ötürülən İslami dəyərlərimizi qorumalı, yaşatmalıyıq. Prezident İlham Əliyev də bu dəyərləri qorumaq üçün çox böyük işlər həyata keçirməkdədir. Dövlət qurumları da öz işini qanuna müvafiq şəkildə aparır.

Biz ölkəmizdə hər hansı radikal qrupların fəaliyyət göstərməsinə imkan vermirik və verməyəcəyik. Çünki bu, cəmiyyətin, söykəndiyimiz İslami dəyərlərin istəyidir. Radikal dini qrupların Azərbaycanda fəaliyyətinin aradan qaldırılması üçün son vaxtlar böyük işlər görülüb və həmin işlər bu gün nəticə verməkdədir. Məhz buna görə Milli Təhlükəsizlik Nazirliyinin, ideoloji qurumlarımızın apardığı işlər çox mühüm nəticələr verir. Bu mübarizə bir an da olsun dayanmayacaq və biz bu fəaliyyətimizi ölkədə radikal qrupların fəaliyyəti tam aradan qalxana qədər davam etdirəcəyik".

# "Dövlət və Din"in yeni sayı çap olunub

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nəşri olan "Dövlət və Din" ictimai fikir toplusunun bu il ikinci sayı işıq üzü görüb.

Jurnal Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xocalı faciəsi qurbanlarının xatirəsini anım mərasimində iştirakı ilə açılır.




Toplunun bu sayında bəşəriyyətin ən böyük bəlası olan terrorizmin dinlə əlaqələndirilməsi fikri tənqid olunur və vurğulanır ki, bu məsələdə ən çox haqsızlığa, yersiz və əsassız ittihamlara məruz qalan İslamdır. Sonuncu səmavi din terrorizmə ən sərt şəkildə münasibət bildirməsinə baxmayaraq, müasir dünyada terrordan daha çox əziyyət çəkən məhz müsəlman ölkələridir.

"Ultrapravıy radikalizm v Yevrope (delo Breyvika)" adlı məqalədə bildirilir ki, Avropada yaxın keçmişdə baş verən hadisələrin təhlili Qərb dünyasında radikal sağçıların ictimai məsələləri ideoloji cəhətdən yozmasının təhlükələr yaratdığını ortaya çıxarır. Misal kimi, 2011-ci il iyulun 22-də Norveçin paytaxtı Oslonun mərkəzindəki hökumət binalarının qarşısında törədilmiş partlayışlar və Ütoya adasında günahsız uşaqların qətlə yetirilməsi göstərilir.

Nəşrdə diqqət çəkən yazılardan biri də "Erməni təcavüzü və dini abidələrimiz"dir. Bu məqalədə işğal altındakı Azərbaycan torpaqlarında olan dini abidələrin dağıdılması, erməniləşdirilməsi və özgələşdirilməsindən danışılır. Həmçinin "Quranın əski sətiraltı tərcümələri haqqında", "Məhəmməd peyğəmbərin (s) dövründə məşvərətin rolu", "İslamın dərkində Quran və sünnənin əhəmiyyəti", "İslamda ağılın məqamı", "Küfrə aparan günahlar" və s. mövzular da oxucularda maraq doğuracaqdır.

"Publisistika" rubrikasında ilahiyyat ilə dinşünaslığın fərqlərindən bəhs edilir, hər iki elm sahəsinin spesifikası və tədqiqat metodologiyasından danışılır.

Bu sayda da topluda işlədilmiş dini-fəlsəfi terminlərin izahı dərc olunmuşdur.

# Səyavuş Heydərov: Yeni milli-dini modelin işlənib hazırlanması prosesi tamamlanma mərhələsindədir

## Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərovun vesti.az saytına müsahibəsi



**-Azərbaycandakı mövcud dini durum haqqında nə deyə bilərsiniz?**

- Azərbaycanda dövlət-din münasibətləri müvafiq qanunvericilik aktları ilə tənzimlənir. Hər kəsin vicdan azadlığı müvafiq qanunlara uyğun olaraq, yüksək səviyyədə təmin edilir. Eyni zamanda, müxtəlif dinlər arasında daim qarşılıqlı dialoqun təşkili həyata keçirilir, ölkəmizdə mövcud olan dinlərə tam bərabərhüquqlu münasibət göstərilir, tolerantlığın nümunəvi forması qorunub saxlanılır.

**-Bu gün dünyada dini ekstremizmlə mübarizə kəskin xarakter almaqdadır. Sizcə, Azərbaycanda İslam dininin, eyni zamanda digər fundamental dinlərin nümayəndələri arasında dini ekstremizmin təzahürləri varmı?**

- Dini ekstremizmin, əsasən, maraqlı qüvvələr, siyasi dairələr tərəfindən məqsədyönlü və ya düşünülməmiş fəaliyyətlər nəticəsində yaranması məlum məsələdir. Bu baxımdan bəzi ölkələrdə dini zəmində baş verən münaqişələr məsələnin beynəlxalq müstəvidə necə aktual olduğunu bir daha göstərir. Həmin proseslər Azərbaycanda da dini sahədə neqativ tendensiyaların yaranmasına təkan verir. Bu meyillərin qarşısının alınması üçün Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi müvafiq dövlət qurumları, o cümlədən Qafqaz Müsəlmanları İdarəsi ilə birgə qanunvericilik çərçivəsində bir sıra maarifləndirici və inzibati tədbirlər həyata keçirir.

**- Ölkə ərazisində radikalizm meyillərinin yaranmasının hansı köklü səbəbləri vardır?**

- Azərbaycan gənc dövlət olaraq müstəqil çiçəklənmə və inkişaf dövrünü yaşayır. Xalqımız müstəqillik əldə etdiyi ilk dövrlərdə bir çox daxili və xarici problemlərlə üz-üzə qalmışdı ki, bunlardan da biri dini sahədəki boşluqlardan ibarət idi. Uzun müddət öz dini və milli-mənəvi dəyərlərindən uzaq saxlanılan Azərbaycan cəmiyyətinə bu dəyərləri bərpa edib, yenidən canlandırmaq üçün vaxt lazım idi. Məhz bu boşluqlardan, eləcə də ölkədəki siyasi böhran və sosial problemlərdən istifadə edən bir sıra qüvvələr müxtəlif məqsədlərlə, o cümlədən din pərdəsi altında öz dini-siyasi baxışlarını və ideologiyalarını ölkəmizə ixrac etməyə müvəffəq oldular. Lakin Ümummilli Lider Heydər Əliyevin qətiyyətli və peşəkar idarəçiliyi sayəsində bu xarici təsirlərin bir çoxu aradan qaldırıldı. Günümüzdə radikalizmə meyil göstərən qüvvələrin yaranmasının səbəbləri məhz qeyd olunan dövrə təsadüf edir ki, bu gün də bu təsirlərin araşdırılması, boşluqların aradan qaldırılması istiqamətində lazımi tədbirlər həyata keçirilir.

**- Dini ekstremizmin toruna düşən gənclər arasında Azərbaycanın rayon və bölgələrindən olan bir çox insan var. Dövlət Komitəsi regionlarımızdan olan gənclərimizin bu tora düşməməsi istiqamətində hansı tədbirləri görməyi planlaşdırır?**

- Bildiyiniz kimi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən bölgələrdəki icra strukturları ilə birgə, hər regionun xüsusiyyətləri, din sahəsindəki proseslər, tendensiyalar nəzərə alınmaqla bir sıra dini maarifləndirmə tədbirləri həyata keçirilir. Bütün bunlar silsilə xarakteri almışdır və gələcəkdə daha geniş kütləyə xitab etməsi üçün bu tədbirlərin davamlılığı təmin olunacaqdır. Məqsədimiz gənclərimizə dünyada geosiyasi və geoiqtisadi maraqlar naminə din amilindən təhlükəli formada istifadə edildiyini çatdırmaq, həmçinin onları uydurma, siyasiləşdirilmiş İslamın təsirindən qorumaqdır.

**-Azərbaycan gənclərinin Yaxın Şərqdə baş verən silahlı münaqişələrdə iştirakının qarşısını almaq üçün hansı tədbirlər görülür?**

-İlk növbədə Dövlət Komitəsi bu sahəyə birbaşa aidiyyəti olan müvafiq dövlət qurumları ilə bilavasitə əməkdaşlığın təkmilləşdirilməsini zəruri hesab edərək, bu istiqamətdə mütəmadi işlər həyata keçirir. Cəmiyyətimizin dini sahədə maarifləndirilməsi üçün müvafiq fəaliyyət strategiyası əsasında tədbirlər planı hazırlanır və həyata keçirilir. Bütün bunlar Azərbaycan gəncliyinin bir daha bu silahlı münaqişələrdə iştirak etməməsinə hesablanmış addımlardır. Bu baxımdan, gənclərimizə həqiqi İslam dəyərlərinin izah edilməsi, vətənpərvərlik hisslərinin ön plana çıxarılması günümüzün prioritet məsələsidir.

**-Mütəxəssislərin fikrincə, Suriya və digər Yaxın Şərq ölkələrində hərbi əməliyyatlarda iştirak edən şəxslər öz ölkələrinə qayıtdıqdan sonra dövlətçilik üçün potensial təhlükə mənbəyinə çevrilirlər. Bu ərazilərdə din pərdəsi altında gedən siyasi oyunların Azərbaycan ərazisinə daşınmaması üçün dövlət tərəfindən hansı addımlar atılır?**

-Dövlətimiz bu sahədə həm inzibati qaydada, həm də mədəni-maarifçilik prinsiplərindən çıxış edərək, qabaqlayıcı tədbirlər həyata keçirir. Cəmiyyətdə radikalizm meyillərinin qarşısının alınmasında hüquq-mühafizə orqanlarının operativ tədbirləri, eyni zamanda dini sahə üzrə mütəxəssislərin cəlb olunması, sosial-iqtisadi, psixoloji faktorların dəyərləndirilməsi və nəzəri hesablamaların praktiki müstəviyə keçirilməsi bu tədbirlərin mühüm tərkib hissəsidir. Eləcə də, beynəlxalq təcrübədə özünü effektiv formada göstərən analitik metodların istifadəsi də bu tədbirlərə daxildir.

**- Bir qisim ilahiyyatçı və din xadimlərinin fikrincə, gənclərin Suriyada silahlı münaqişələrdə iştirakının bilavasitə səbəbi dini savadsızlıqdır. Bu haqda nə düşünürsünüz?**

- Təbii ki, bir çox bəlaların kökündə savadsızlıq durur. Qeyd etdiyimiz kimi, Azərbaycanın milli-mənəvi dəyərlərinin bərpası və yenidən canlandırılması müəyyən zamana bağlı məsələdir. Süni formalaşdırılmış yad dəyərlərə kortəbii şəkildə inanmaq, ayrı-ayrı fərdlərin, bəzi xarici maraqlı qüvvələrin elmi və dini əsası olmayan fətva və qərarlarına uyaraq cəmiyyətdə rezonans doğuran fikirlərlə çıxış etmək dini savadsızlığa bariz nümunədir. Bu baxımdan cəmiyyətimizdə dini baxışların düzgün, milli-mənəvi dəyərlərə uyğun şəkildə təbliği üçün yeni milli-dini modelin işlənib hazırlanması prosesi tamamlanma mərhələsindədir.

**- Milli-dini model dedikdə nəyi nəzərdə tutursunuz?**

- Milli-dini model dedikdə, əslində, yeni bir kəşf, yaxud da İslama yeni dəyərlər sisteminin gətirilməsi nəzərdə tutulmur. Bu, sadəcə olaraq, xalqımızın milli-mənəvi dəyərlərinin, minilliklər boyu formalaşan və tarixi köklərə söykənən dini təfəkkürünün müasir nəslə effektiv çatdırılma sistemidir. Milli-dini modelin formalaşdırılmasının əsas qayəsi ölkəmizə ixrac edilən yad təsirlərin, başqa xalq və millətlərin dəyərləri ilə uzlaşmış İslami prizmanın qarşısının alınmasıdır.

**- Bu modelin tətbiqi nəticəsində hansı dəyişikliklərin baş verəcəyi gözlənilir?**

- Biz milli-dini modellə öz prizmamızı ortaya qoymalı, təməl İslami qaynaqlara söykənən, eyni zamanda milli-mənəvi dəyərlərimiz və dövlətçiliyimizlə uzlaşan yeni təqdimat və təbliğat sistemini formalaşdırmalıyıq. Bu gün bir sıra cəmiyyətlərdə, İran, Türkiyə kimi ölkələrdə, ərəb ölkələrinin bir çoxunda İslam dininin əsas prinsipləri ilə yerli milli-mənəvi dəyərlər uzlaşmış, bir növ institutlaşmış şəkildə təzahür etmişdir. Məhz bu səbəbdəndir ki, həmin ölkələrin adət-ənənələri ilə uyğun gəlməyən təriqət və məzhəblər mövcud cəmiyyətlərdə özlərinə mövqe qazana bilmir. Buna görə də bizim nəzərdə tutduğumuz milli-dini model milli kimliyimizin ehtiva etdiyi dəyərləri və mütərəqqi İslam prinsiplərini özündə birləşdirməli, bugünkü Azərbaycan reallıqları ilə ayaqlaşmalıdır. Yəni biz bəzi dini cərəyanların daşıyıcılarının arzu etdiyi kimi min il geriyə gedərək, o dövrün din anlayışını müasir və inkişaf etmiş Azərbaycan cəmiyyətinə tətbiq edə bilmərik.

# Dövlət Komitəsinin sədr müavini bir sıra görüşlər keçirib



Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov fevralın 27-də Daxili Qoşunların Ali Hərbi Məktəbinin şəxsi heyəti və müdavimlər, martın 6-da Daxili İşlər Nazirliyinin (DİN) Abşeron və Qobustan polis orqanlarının şəxsi heyəti, martın 10-11-də DİN-nin Suraxanı və Yasamal rayonları Polis İdarələrinin şəxsi heyəti, martın 12-də Bakı şəhəri Qaradağ rayonu Polis İdarəsinin rəhbərliyi və şəxsi heyəti, martın 13-də isə Sumqayıt şəhəri Polis İdarəsinin rəhbərliyi və şəxsi heyəti ilə görüşüb.

Görüşlərdə çıxış edən Səyavuş Heydərov Azərbaycandakı mövcud dini durum, dövlətin bu sahəyə qayğısı, ölkəmizdə radikalizm meyillərinin yaranması və bunda maraqlı olan qüvvələr, onların istifadə etdikləri həvəsləndirici vasitələr, dini ekstremizmə qarşı keçirilən maarifləndirmə işinin təşkili üzrə kompleks tədbirlər barədə geniş məlumat verib. Qeyd olunub ki, dini radikalizmlə mübarizənin effektivliyinin artırılması məqsədilə qarşılıqlı əlaqələrin gücləndirilməsi və məlumat mübadiləsinin genişləndirilməsi istiqamətində



görüşlərin mütəmadi keçirilməsi vacibdir. Sədr müavini bəzi xarici dairələr tərəfindən İslam dininin siyasiləşdirilməsi və ondan şəxsi, siyasi, iqtisadi və s. məqsədlər üçün istifadə halları, bəzi gənclərin aldadılaraq neqativ təsirlərə məruz qalmaları, bu hallara qarşı birgə mübarizə üsulu barədə fikirlərini bölüşüb.

Tədbirlərdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin ölkə üzrə apardığı maarifçilik işi, həmçinin dini icmalarla səmərəli fəaliyyəti yüksək qiymətləndirilib və bu kimi görüşlərin əhəmiyyəti vurğulanıb.

Görüşlərin sonunda iştirakçıların sualları cavablandırılıb və tədbirin mövzusu ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Biz insanca davranmağı bacarırıq, bəs qarşımızdakı?!

Tarixin gedişini fərqli səmtlərə yönəldən hadisələrdən hər kəs öz istək və mahiyyətinə yğun yararlanır. Məhz belə hadisələrdən biri də Birinci Dünya müharibəsidir. Savaş nəticəsində dünyanın siyasi xəritəsi dəyişdikcə xalqların milli özünüdərk şüuru get-gedə güclənirdi. Milli şüurda baş verən oyanışla müstəmləkə xalqlarının mərkəzdənqaçma meyillərinin güclənməsi isə imperiyaların maraqlarına cavab vermirdi. Bu minvalla imperiyalar həmin ərazilərdə əvvəlcədən oraya yerləşdirdikləri qüvvələrdən bir rıçaq kimi istifadə edir, yerlərdə qanlı qırğın və müharibələrə rəvac verirdilər. Qafqaz regionuna köçürülmüş ermənilər tarix boyu şüurlarına hakim kəsilən türk-müsəlman əhaliyə nifrəti, Azərbaycana qarşı ərazi iddialarını gerçəkləşdirmək üçün sanki bir fürsət qazanmışdılar. Tarixi hadisələrə nəzər salsaq, belə bir qanunauyğunluq aşkar edə bilərik ki, gərgin anlardan erməni millətçiləri daim öz məkrli məqsədləri üçün istifadə etmiş, azərbaycanlılara qarşı terror aktlarına əl atmışlar. Sözügedən mənzərənin 1918-ci ildə erməni daşnaklarının öz havadarlarının dəstəyi ilə azərbaycanlılara qarşı törətdikləri mart soyqırımı üçün xarakterik olduğunu desək, yanıl- marıq. Belə ki, erməni xisləti üçün səciyyəvi olan bu hərəkətlər 1918-ci ilin mart ayında Bakıdakı yerli əhaliyə qarşı etdikləri sui-qəsddən sonra daha intensiv və sistemli xarakter aldı. Ağlagəlməz vəhşiliklər edən erməni quldurları bir həftə boyu yerli müsəlman əhaliyə qarşı kütləvi etnik təmizləmə siyasəti həyata keçirərək insanlığa sığmayan barbarlığa imza atdılar. Məhz, azərbaycanlılar yaşayan əraziləri atəşə tutur, yandırır, qarşılarına keçən müsəlmanlara amansız divan tuturdular. Hadisə şahidlərinin xatirələri ilə tanış olduqca ixtiyar qocalara, məsum körpələrə verilən işgəncələrin göz önündə canlanan mənzərəsi belə bir sual doğurur: "Görəsən, bu günahsız körpələrin, ixtiyar ahıl və qocaların, qadınların təqsiri nə idi?" Sağlam insan düşüncəsi ilə sualın cavabı tapılmasa da erməni təfəkkürü və daşnak məntiqinə görə, məhv edilən insanların, hətta qadın, körpə və qocaların da "günah"ı var idi. Onların "günah"ını azərbaycanlı kimi dünyaya gəlmələrində görürdülər. İnsanları qətlə yetirməklə kifayətlənməyən canilər öz cinayətlərinin izlərini ört-basdır etmək üçün meyitləri müxtəlif vasitələrlə məhv edir, yaxud yandırır, dənizə atırdılar. Odur ki, yalnız Bakı ərazisində qətlə yetirilən on minlərlə insanın əksəriyyətinin meyitləri tapılmamışdır. Mart soyqırımı bizlər üçün təkcə tarix kitablarından, arxiv materiallarından tanış olduğumuz faciəli hadisə deyil, bu qırğın dəqiq təsəvvür etdiyimiz, dərindən duyduğumuz, sanki şahidi olduğumuz və bir millətə qarşı həyata keçirilmiş genosid aktıdır. Biz belə qırğınları yalnız tarixdən, şahidlərin xatirələrindən öyrənmirik, həm də bir soyqırımı aktı kimi hiss edirik. Axı eyni xarakterli, eyni mahiyyətli Xocalı soyqırımı və işğal olunmuş digər torpaqlarımızda soydaşlarımıza qarşı həyata keçirilmiş qanlı qırğınlardan bizi cəmi iyirmi illik zaman kəsiyi ayırır. Genosid siyasətini bütöv bir xalqa qarşı törətməklə kifayətlənməyən erməni vandalları həm də zəngin tarixi keçmişə malik bir xalqın yaratdığı mədəniyyət nümunələrini hədəfə alır, məscid, mədrəsə, teatr binalarını, xəstəxanaları yandırır, xarabazara çevirib viran qoyurdular. Bunlara misal olaraq, "Təzəpir" məscidi və "İsmailiyyə" binasını göstərmək olar. Başımıza gətirilən müsibətlər arasında Mart soyqırımı nə birinci oldu, nə də sonuncu. Müdriklərin bir deyimi var: "Qurd rəngini dəyişsə də, xasiyyətini dəyişməz". Bəli, erməni daşnakları Sovet Rusiyası ölkəmizi işğal etdikdən sonra bu dəfə bolşevik cildinə bürünərək öz məkrli siyasətlərini həyata keçirdilər. Xisləti dəyişməyən bu "rəngi" dəyişmişlərin imperialist qüvvələrin dəstəyi ilə yüzminlərlə həmvətənimizə qarşı repressiyaların həyata keçirilməsində aktiv iştirakçı oldular. Lakin biz yenə unutqanlıq etdik, həmişə olduğu kimi. Birlikdə yaşamağa razı olduq, mehribanlıq, qonaqpərvərlik göstərdik. Çünki biz hər şeydən əvvəl insanıq və sahib olduğumuz dəyərlər bizə bu cür davranmağı diktə edir. Yenə də tarixin ibrət dərslərindən nəticə çıxarmamağımızın sonucudur ki, bu gün namərd qonşularımız ərazimizin dörddə bir hissəsini işğal etmiş, bir milyondan çox soydaşımız öz doğma yurd-yuvasından didərgin düşmüşdür. Milli-mənəvi dəyərlərimizə sadiq olmaqla bu dəyərlərə uyğun davranmağa borclu olduğumuz kimi, diqqətli olmağa da həm borclu, həm də məhkumuq. Çünki biz insan olduğumuzu bilir və insanca davranmağı bacarırıq, bəs qarşımızdakı?!

***Rüstəm RAMAZANOV***



# Rahib həyatı

Təqribən 2000 il bundan əvvəl indiki Hindistanla Nepalın sərhədində bir krallıq mövcud idi. Ölkə kral tərəfindən idarə olunurdu. Bir dəfə kralın arvadı yuxuda görür ki, onun böyrünə ağ fil girir. Yuxunu bir müdrikə danışırlar. O, yuxunu belə yozur ki, tezliklə kralın oğlu dünyaya gələcək, o, ya böyük hökmdar, ya da müqəddəs şəxs olacaq. Və beləliklə, bütün dünyada Budda kimi tanınan şahzadə Siddhartha Gautamanın həyat hekayəsi başlayır.

Siddharthanın atası sözsüz, istəyirdi ki, oğlu hökmdar olsun. Çünki həmin dövrdə müqəddəs şəxslər ciblərində bir qəpik belə olmayan avaralar idi. Buna görə də kral oğlunu cah-calal və qayğı içərisində böyüdərək, krallıqdan kənara çıxmasına icazə vermir. Ancaq şahzadənin 18 yaşı olduqda o, ilk dəfə saraydan kənara addım atır. Dəbdəbə və rifahın hökm sürdüyü saraydan kənara çıxan gənc şahzadə ilk dəfə xəstəlik, yoxsulluq və ölümün şahidi olur. Gördükləri onu o qədər sarsıdır ki, şahzadə Gautama öz rahatlığından və ailəsindən imtina edərək, bütün əzabların səbəblərini öyrənmək istəyi ilə həqiqətin axtarışına doğru yola çıxır...

O vaxtdan 2500-dən ildən artıq müddət ötsə də, bu gün də bir çox insan bütün dünyəvi nemətlərdən əl çəkərək ruhanilik yoluna qədəm qoyurlar.

Buddizmi sözün tam mənasında din adlandırmaq qeyri-mümkündür. Buddistlər Buddaya, o cümlədən bir çox başqa tanrılara və bodhisattvalara (bütün varlıqların rifahı naminə budda olmağa qərar vermiş insan) pərəstiş edirlər. Ancaq bunu edərkən onlara qüdrətli hökmdar kimi deyil, müəllim kimi yanaşırlar. Onların fikrincə, dünyadakı bütün əzabların əsas qaynağı cahillikdir. Məhz dünya haqqında təhrif edilmiş təsəvvürlərə sahib olduğu üçün insan dönə-dönə yenidən doğulma çarxında fırlanır. Hər canlının mövcudiyyət məqsədi aydınlanma yolu ilə bu dünyanın həqiqi təbiətini dərk etmək və ölüb-dirilmə çarxından xilas olmaqdır.

Əlbəttə, bu həyatda hər kəs belə dəyişikliklərə qadir deyil və bu, normal haldır. Yolun hamısını qət etmədən məqsədə çatmaq mümkün deyil. Yalnız buna hazır olan kəs rahib olur.

Hansı yolla buddist rahibi olmaq olar?

Hər monastırın öz ənənəsi var. Budda təliminin ümumi qaydaları hər yerdə eynidir, ancaq günlük nizam-intizam qaydaları, monastıra qəbul kimi detallar yerdən yerə fərqlilik göstərə bilir.

### "Dzen" ənənəsi

Səyahətçi paltarını – bambukdan şlyapa, çiynindən asılmış yol çantası və ağacdan səndəl – geyinmiş və kilometrlərlə yol qət etmiş şəxs monastırın darvazasına yaxınlaşır. Monastırın rəsmi nümayəndəsi olan rahiblərdən biri təzə gəlmiş şəxsi qarşılamaq üçün çölə çıxır. Həmin şəxs özünü təqdim edir və onu ruhani vəzifəsinə keçirən ustadının tövsiyə məktubunu göstərir. Rəsmi nümayəndə ədəblə, ancaq qəti şəkildə yeni gələnin rahiblik qardaşlığına qəbulundan imtina edir. Səbəblər müxtəlif ola bilər: monastır doludur, yaxud yeni gələnləri saxlamağa imkan yoxdur və s. Əgər yeni gələn şəxs heç bir danışıqsız bu izahla razılaşıb, başqa monastıra yollanarsa, o, heç vaxt monastıra qəbul olunmayacaqdır. Çünki hər yerdə eyni şeylə qarşılaşacaqdır. Rahib olmaq istəyən şəxs darvazanın ağzında əyləşməli, başını avadanlıqlarının üzərinə qoymalı və səbirlə gözləməlidir. Bununla "dzen" dərsi başlamış olur: həqiqət yolunda çoxlu manelər var, yalnız öz niyyətində qəti olan kəs başqalarının dediklərinə fikir verməmdən sonacan gedəcəkdir.

### Tibet buddizmi

Əvvəllər hər tibetli ailə ən azı bir uşağını rahibliyə verirdi; bu, təhsil almaq üçün yeganə imkan idi. 8-10 yaşları olduqda uşaqları monastıra göndərirdilər. Burada onlara müxtəlif fənlər keçilirdi; şagirdlər dini təlimlərlə yanaşı, sürətli oxumağı, tibet və ingilis dili, riyaziyyat, təbiətşünaslıq kimi ümumi təhsil fənlərini də öyrənirdilər. Rahibliyə hazırlanan şəxs 20 yaşına qədəm qoyduqda bundan sonrakı həyatına necə davam edəcəyinə qərar verməli idi. Kimisə monastırda qalıb, rahib olurdu, digərləri isə ailələrinin yanına dönərək dünyəvi həyatlarına davam edirdilər.

Monastırdakı bir gün

Burada günə saat 5-də başlayırlar. Hər kəs oyandıqdan sonra yuyunur və dişlərini təmizləyir. 05:30-da başlayan dərslər səhər yeməyinə qədər davam edir. Müxtəlif yaşlarda olan rahiblər öz yaş hədlərinə uyğun fənləri öyrənirlər. Ənənəvi olaraq səhər saatlarında oxumaq öyrədilir. Uşaqlar əlifbanı, böyüklər isə sürətli oxumağı öyrənirlər.

Buddist monastırlarında sürətli oxumaq bacarığı olduqca əhəmiyyətlidir. Birincisi, ona görə ki, Buddanın təlimlərini bütünlüklə mənimsəmək üçün çoxlu oxumaq lazımdır. İkincisi isə bəzi sutralar (qədim hind ədəbiyyatında qısa, yığcam deyimlər, aforizmlər) mərasim və ayinlərdə o qədər sürətlə oxunur ki, əgər hər gün məşq edilməzsə, onları düzgün tələffüz etmək mümkün olmayacaqdır. Rahiblər çox sürətli şəkildə gün ərzində 800 səhifəlik mətni oxuya bilərlər.

Rahiblər yeməyə yarım saatdan çox vaxt ayırmırlar. Yeməkləri olduqca sadədir – düyü, mərci şorbası, tərəvəzlər, süd, yağ, həftədə bir neçə dəfə yumurta. Fərqli monastırlarda qidalanma qaydaları da fərqlidir; kimisə vegetarian pəhrizinə əməl edir, kimisə yox. Başlanğıcda buddistlərin hamısı vegetarian idilər və mümkün olan hər yerdə bu vərdişlərini qorumağa çalışırdılar. Ancaq buddizm Tibetə gəlib çıxdıqdan sonra rahiblər ət yemək məcburiyyətində qaldılar. Çünki sərt iqlim şəraiti olan bu bölgədə tərəvəz yetişdirmək mümkün deyil və əhalinin əsas qida rasionuna arpa unu və yak əti daxildir.

Monastırın ərazisinə rahiblər özləri nəzarət edirlər. Səhər saat 8-də və axşam saat 4-də gündəlik "puca"lar – ayin dualarıı zamanı azyaşlı rahiblər təcrübəsiz olduqlarına görə "puca"nı yerinə yetirmədə çətinlik çəkirlər. Buna görə də onlara monastırın ərazisini təmizləmək tapşırılır.

8-10 yaşlarında monastıra qəbul edilən uşaqlar rahib cübbəsi geyinmələrinə və başlarını qırxmalarına baxmayaraq, hələ rahib sayılmırlar. Yalnız 20 yaşına qədəm qoyduqdan sonra gənc rahib olub-olmamağa özü qərar verir. Yeri gəlmişkən, oğlanlarla yanaşı, qızlar



# Bakıdakı pravoslav kilsələr

## (qısa baxış)

Azərbaycan mədəni-tarixi ənənələri ilə yanaşı, dini müxtəliflik baxımından da zəngin ölkədir. Xalqımız tarixən başqa dinlərə qarşı dözümlü olmuş və onlara hörmətlə yanaşmışdır. Bu xüsusiyyət Azərbaycan xalqının, onun mentalitetinin, təfəkkürünün özəlliyi və ayrılmaz tərkib hissəsidir.

Tarixə nəzər salarkən aydın olur ki, 1818-ci ilə qədər Bakıda daimi oturaq kilsə olmayıb. O vaxta qədər kilsə rolunu səyyar hərbi kilsələr oynayıb.

XIX əsrdə Rusiya imperiyasının Azərbaycanı işğal etməsi və burada rusların məskunlaşması ölkəmizdə pravoslav kilsələrin tikintisinə təkan verib. 1818-ci ildə kiçik, həm də əlverişli olmayan Müqəddəs Nikolay kilsəsi inşa olunub.

Üç il sonra - 1821-ci il iyun ayının 29-da yerli pravoslavlar tərəfindən komendant-polkovnik Melikova kilsə tikintisi üçün müraciət edilmişdir. Tikintisi 1857-ci ildə başa çatan kilsə 1858-ci il mayın 4-də istifadəyə verilmişdir. Həmin tikili İçərişəhərdə Qoşa Qala Qapısının yanında yerləşirdi.

XIX əsrin ikinci yarısında kapitalizmin inkişaf göstəricilərindən biri də dəmiryolların çəkilməsi idi. Sabunçu vağzalı bu mənada mərkəz rolunu oynayırdı. Rus əhalisinin əksəriyyəti bu mərkəzdə yaşayırdı. Onların icması kilsə tikintisi barədə Bakı qubernatoruna müraciət etmiş və razılıq almışdı. 1894-cü il yanvarın 18-də qubernator kilsənin tikintisi barədə sərəncam vermişdi. Sərəncama yer, plan və smeta xərcləri daxil idi. Kilsənin nəzdində dörd sinif ibtidai-dini təhsil verəcək məktəb-kilsə də təsis edilmişdi. Onun bir şöbəsi də keçmiş Basin (Füzuli) küçəsinin Lenin (Azadlıq) prospekti ilə kəsişməsində idi.

1925-ci ildə Sabunçu vağzalının genişləndirilmə tədbirləri ilə əlaqədar kilsə köçürülmüşdü. Hazırda fəaliyyətdə olan Müqəddəs Məryəm kilsəsi Nəsimi rayonu ərazisində (Şamil Əzizbəyov küç., 205) yerləşir.

1882-ci ildə Bakıdan Mahaçqalaya (Petrovsk) getmək üçün xüsusi stansiya mövcud idi. Biləcəridəki həmin stansiyada ruslar və azərbaycanlılar işləyirdilər. Vladiqafqaz dəmir yolunun çəkilişi ilə Biləcəri stansiyası tədricən ixtisaslı rus fəhlələrinin cəmləşdiyi yer kimi formalaşmış və böyük əhəmiyyət daşımağa başlamışdır. Həmin dövrdə burada ailələri ilə yaşayan rusların sayı təxminən 940-a çatmışdır. Onlar 1902-ci ildə həm təziyədarlıq, həm də mülki təhsil üçün kilsə tikintisi xahişi ilə qubernatora müraciət etmişlər.

1903-cü il aprelin 23-də 300 nəfərin birgə ibadət edə bilməsi üçün nəzərdə tutulan və daş özül üzərində taxtadan tikilən Müqəddəs Apostol Varfolomey kilsəsi istifadəyə verilmişdi. Amma növbəti ilin yanvarın 25-də mühafizəçinin səhlənkarlığı ucbatından kilsədə yanğın baş vermişdir. Xoşbəxtlikdən kilsəyə böyük zərər dəyməmiş, tikilinin yalnız yuxarı hissəsi və zəng qülləsi zədələnmişdi. Pasxaya qədər kilsə təmir edilərək, tam bərpa olunmuşdu. 1905-ci ildə isə o, tamamilə daşdan hörülmüşdü. Sovet hakimiyyəti illərində dini fəaliyyəti qadağan olunan kilsədə 2000-ci illərin əvvəllərinə qədər çörəkbişirmə sexi yerləşirdi. Hazırda kilsənin əsaslı təmirə ehtiyacı var.

Bakının dünya neft sənayesinin mərkəzinə çevrilməsi buraya əksəriyyəti ruslardan ibarət olan xeyli işçi qüvvəsinin axınına səbəb olmuşdur. Məhz bu səbəbdən, Çar Rusiyası Azərbaycanda mövqeyini gücləndirmək məqsədi ilə təkcə Bakıda 17 kilsə və bir neçə dua evləri inşa etdirmişdir:

1) Hərbi ibadət yeri sayılan Mixail Arxangel kilsəsi (1841-ci il);

2) İdarə mülkü kilsəsi (1861-ci il);

3) Bayılda Müqəddəs Mitropolit Aleksey adına Bakı hərbi liman kilsəsi (1871-ci il);

4) Gömrük mühafizəçiləri üçün birlik kilsəsi (1886-cı il);

5) Spaso-Preobrajenski kilsəsi (1892-ci il);

6) Aleksandr Nevski texniki mülki məktəb kilsəsi (1894-cü il);

7) Müqəddəs Məryəmin Miladı kilsəsi (1896-cı il);

8) Dəmiryolu Spaso-Preobrajenski kilsəsi (1898-ci il);

9) Aleksandr Nevski kilsəsi (1898-ci il);

10) Müqəddəs Varfolemey kilsəsi (1903-cü il);

11) Sabunçuda Müqəddəs Makari kilsəsi (1904-cü ildə Sabunçu xəstəxanasının qarşısında, Səlidar Məmmədəliyev və Seyid Hüseyn küçələrinin kəsişdiyi yerdə tikilib. Sovet hakimiyyətinin ilk illərində sökülərək yerində istirahət bağı salınıb.);

12) Qara şəhərdə Müqəddəs İlya kilsəsi (1906-cı il);

13) Jen Mironosets kilsəsi (1909-cu il);

14) Aleksey sığınacaq kilsəsi (1909-cu il);

15) Aleksey Malikanəsi kilsəsi (1911-ci il);

16) Ramanada kilsə məktəbi (1912-ci il).



Sovet hakimiyyəti dönəmində dinə qoyulan qadağalar digər dinlər kimi, Xristianlıqdan da yan keçməmişdi. Bakıda mövcud olmuş 17 pravoslav kilsənin fəaliyyəti qadağan edilmişdi. Sonrakı illərdə Müqəddəs Məryəmin Miladı, Mixail Arxangel və Jen Mironosets saxlanılmaqla qalan kilsələr sökülmüş, bəziləri isə anbara çevrilmişdi. İkinci dünya müharibəsinin baş verməsi sovet hakimiyyətinin dinə münasibətini bir qədər yumşaltmışdı. Nəticədə 1944-cü ildə Müqəddəs Məryəmin Miladı kilsəsi fəaliyyətini bərpa edərək Baş kafedral kilsə statusu almışdır. 1946-cı ildə Mikail Arxangel kilsəsi yenidən rus pravoslav kilsəsinin ixtiyarına verilmişdir.

1991-ci ildə isə Azərbaycan xalqının müstəqilliyini bərpa etməsi və dünyəvi, demokratik, hüquqi dövlət quruculuğuna qədəm qoyması ilə pravoslavlar üçün geniş imkanlar və perspektivlər açılmışdır. 1909-cu ildə xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev tərəfindən tikilən Jen Mironosets kilsəsi əsaslı təmir edilərək 2001-ci ildə dindarların istifadəsinə verilmişdir.

1912-ci ildə Ramanada inşa edilən kilsə məktəbinin qalıqları kəndin 11-ci mədən küçəsində bugünədək qalmaqdadır.

Bu gün dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanda yaşayan müxtəlif millətlərin nümayəndələri, o cümlədən pravoslav xristianlar ölkəmizə öz töhfələrini verməklə, ictimai-siyasi və sosial-mədəni həyatın bütün sahələrində yaxından iştirak edir, vətəndaş cəmiyyəti quruculuğunda fəallıq nümayiş etdirirlər. Onların Azərbaycanda öz adət-ənənələrinə uyğun yaşamaları üçün hər cür imkan yaradılıb.

*Mirzəağa MƏMMƏDOV,*
*tədqiqatçı - jurnalist*

# Rahib həyatı

da rahib ola bilirlər. Həm geyim tərzi, həm də qanunlar ikisi üçün də eynidir. Bir istisna var ki, qızlar istəsələr, saçlarını bir neçə sm uzun saxlaya bilərlər.

Rahib tələbələr iki nəfərlik otaqlarda qalırlar. Onlardan biri monastıra yeni gələn azyaşlı, digəri isə ona nəzarət edən və qayda-qanunu öyrədən böyük rahib olur.

20 yaşına qədəm qoymuş tələbə rahib olmaq qərarına gəlirsə, qarşıda onu üç illik “retrit”, yəni tənhalıq, meditasiyaya həsr olunmuş, hər şeydən uzaq həyat gözləyir. “Retrit” qanunları olduqca sərtdir. Rahiblər “retrit” ərazisindən kənara çıxa bilməzlər; onlar vaxtlarını bütövlükdə təcrübəyə həsr edir, hətta meditasiya zalında oturduqları yerdə yatırlar.

Rahib həyatını istiqamətlərdən birinə həsr edə bilər: ya buddist fəlsəfəsini tədqiq edə, ya da ayinlər keçirə, mərasimlərin düzgün yerinə yetirilməsinə nəzarət edə bilər. Başqa sözlə desək, nəzəriyyə, yaxud təcrübə yolunda addımlaya bilər.

Təcrübə yolunu seçmiş bəzi rahiblər dağlara çəkilərək tənhalıqda meditasiya ilə məşğul olurlar. Onlar nə yemək, nə də soyuq barədə düşünürlər. Bu çətin yolla aydınlanma yolunu seçən rahiblərə böyük ehtiram göstərilir, ətraf kəndlərdən insanlar hədiyyə olaraq onlara yemək gətirirlər. Rahiblər “tumo” adlanan xüsusi tənəffüs texnikasının köməyi ilə soyuqdan qorunurlar.

Meditasiya vasitəsilə ağlın və ruhun bacarıqlarını inkişaf etdirən rahiblər çox vaxt başqalarına möcüzə kimi gələn bəzi bədən bacarıqlarını da inkişaf etdirirlər. Rahiblərin uça bildikləri, bir yerdə itib başqa yerdə üzə çıxdıqları barədə çoxlu əfsanələr dolaşır. Ancaq XIV dalay lamanın da dediyi kimi, əsl möcüzə öz düşməninə qəzəblənməməkdir, sənə nifrət edənlərə eyni hisslərlə qarşılıq verməməkdir, şəxsi mənfəətlərinə, dini şöhrətpərəstliyə və özünə qalib gəlməyə görə deyil, bütün canlı varlıqların rifahı naminə ürəkdən aydınlanmağa çalışmaqdır.

*Mənbə: www.moya-planeta.ru*
*Hazırladı: Güney NAMAZOVA*



# Şeyx Həsən Mollazadənin yaradıcılığında tarix elminə baxış

XX əsrin əvvəllərində Azərbaycanda digər sahələrdə olduğu kimi, din sahəsində də maarifçiliyə xüsusi önəm verilmişdir. Bu tərəqqidə dövrün Əbdüssəlam Axundzadə, Əbu Turab Axundzadə, Molla Ruhulla, Axund Yusif Talıbzadə, Mir Məhəmməd Kərim əl-Bakuvi, o cümlədən Şeyx Həsən Mollazadə kimi din xadimlərinin böyük rolu olmuşdur. Onlar İslam tarixini tədqiq və təbliğ etməklə Rusiya əsarətində olan Şimali Azərbaycan müsəlmanlarının öz dinlərini daha yaxşı öyrənmələrinə və maariflənmələrinə xidmət göstərmiş, öz əsərləri ilə Azərbaycanda tarix elminin inkişafında da böyük rol oynamışlar. Belə maarifçilərdən biri də 1853-1919-cu illərdə yaşamış Hacı Şeyx Həsən Mollazadə Gəncəvidir.

Onun ən əhəmiyyətli əsəri Adəmin yaradılışından XX əsrə qədərki dövrü əhatə edən 4 cildlik "Zübdət-üt-təvarix"dir ("Tarixlərin xalisi"). Əsər XVIII-XX əsrlər Azərbaycan tarixi baxımından da qiymətlidir.

Şeyx Həsən Mollazadə Gəncə və Təbriz mədrəsələrində dini təhsil aldıqdan sonra Nəcəf şəhərinə gedərək 5 il də burada dini elmlərin incəliklərinə yiyələnmişdir. Müctəhid adını qazanan Mollazadə təhsilini başa vurduqdan sonra müqəddəs Həcc ziyarətinə getmişdir. Artıq ali savadlı ruhani kimi özünü təsdiqləmiş Şeyx Həsən Gəncəyə qayıdaraq ruhani kimi fəaliyyət göstərmiş və ömrünün sonunadək burada yaşamışdır. XX əsrin əvvəllərində Tiflisə gedərək şeyxülislamın yanında imtahan vermiş və Gəncə şəhərinin axundu təyin olunmuşdur. Həmçinin Şah Abbas məscidindəki ruhani seminariyasında ilahiyyat fənnini tədris etmişdir.

Ona yaxın kitabın müəllifi olan böyük ilahiyyatçı-alim "Zübdət-üt-təvarix" əsərində özünə qədərki tarix kitablarının müxtəsər olduğunu, bu səbəbdən Həzrət Adəmdən bəri tarixi əhvalatları ehtiva edən kitab yazmağa ehtiyac duyduğunu qeyd edərək, tarixin əhəmiyyətini belə vurğulamışdır: "Tarixin lazımlığında bu qədər kifayət edər ki, tarix bir adamı Həzrət Adəm zamanından dünyaya gətürüb bugünədək yaşamış kimi edər və yer yüzündə nə qədər zikrə şayan insan gəlüb keçmiş isə onların ətvar (vəziyyət-Ə.F.) və hərəkatını göstərmək üçün bir ayineyi-cahannüma hökmündədir". Mütəfəkkir bu əsərində tarix elmini iki qismə ayırmışdır: "Tarix iki qism olub başluca tarixi-müqəddəs və tarixi-təməddün qismlərinə münqəsim olur. Tarixi-müqəddəs ...ənbiyayi-izamın ətvar və hərəkatından və asarı-möcüzələrindən və məbus olduqları əqvamın vüquatı-məşhurələrindən bəhs edər. Tarixi-təməddün – növi-insanın zühurundan bu zamana qədər yer yüzündə mövcud əqvamın surəti-mədəniyyətlərindən mərifətlərindən və məşhur vəqailərindən və bir-birilə olan məmulatlarından və davalarından və təşkil eylədikləri dövlətlərdən və icad etdikləri sənayedən bəhs edər".

Dünyanın yaranandan baş vermiş dini və tarixi hadisələri şərh edən əsərin dördüncü cildində İranın, Qafqazın, Orta Asiyanın tarixi ilə yanaşı, Azərbaycan tarixinin XVIII əsrin sonundan başlayaraq XX əsrin ilk on illiyinə qədərki dövrü təsvir olunmuşdur. Müəllif əsərində müsəlmanların geridə qalma səbəbini İslamdan uzaqlaşmalarında görmüşdür: "Müsəlmanların əvvəlki tərəqqiləri dinə əməl etməkdən və sonrakı zillət və rəzalətləri dini bilmədiyindən naşi olubdur. İranlıların, osmanlıların bu axır zamanlarda millətlərini və izzəti şərafətlərini badi-fənaya verməkləri bidinlik və binamusluq və əğrazi-nəfsaniyyədən naşi oldı. Hər millət din əmrində nə qədər cahil olursa, o nisbətdə tənəzzül edər. Və amil (əməl edən-Ə.F.) olursa, o nisbətdə tərəqqi edər".

Mollazadənin yaradıcılığında tarix elminin İslam maarifçiliyi baxımından şərhi xüsusi yer tutur. Tarix elminin faydalarını izah edən mütəfəkkir onu din və peyğəmbərlər tarixini öyrənmək baxımından vacib saymışdır: "Elmi-tarix lazımlı elmlərdən olub insana din lüzumunı bəyan edər. Elmi-tarix insanı dünyanın tamam ömrini edüb dünyada zühur edən ənbiyanın və əqvamın tamam ətvar və hərəkatını gözüylə görmüş kimi edər. Tarixdə cahil hər elmdən cahildir". Müəllif xüsusilə din tarixinə diqqət çəkərək onun insanı xurafatdan qurtardığına, insan ağlını saflaşdırdığına, etiqadını möhkəmləndirdiyinə səbəb olduğunu göstərmişdir.

Qeyd etmək lazımdır ki, uzun illər ateist dünyagörüşünün hakim olduğu Sovet ideologiyasının və rus işğalının acı nəticəsi olaraq Azərbaycanın bir sıra görkəmli din xadimi repressiyaya məruz qalmış, sürgünlərdə çürüdülmüş, öldürülmüş, əsərləri isə ya unutdurulmuş, ya da məhv edilərək xalqın yaddaşından silinmişdir. Bunun təbii nəticəsi olaraq xalqımız özünün ən mütərəqqi ziyalılarının elmi fəaliyyətindən xəbərsiz qalmış, nəticədə öz mənəvi mirasına yadlaşmış, bu isə xarici dini ideologiyaların ölkəmizə ayaq açmasına zəmin yaratmışdır. Bu baxımdan azərbaycanlı din xadimlərinin, o cümlədən Mollazadənin maarifçilik və tarixşünaslıq baxımından əhəmiyyətli əsərlərinin tədqiqi və təbliği vacibdir.

*Əli FƏRHADOV*
*TUMİB Elmi Araşdırmalar və Tədqiqatlar Mərkəzinin rəhbəri*
*al304f@yahoo.com*





# Novruzun ruhu imandandır

Xalqımızın zəngin keçmişini, qədim adət-ənənələrini, milli kimliyimizi birləşdirən Novruz bayramı ərəfəsindəyik. Hər il bayram günləri yaxınlaşdıqda müsəlmanlar arasında belə bir mövzu aktuallıq qazanır: Novruz bayramını keçirmək doğrudurmu? Bu bayramın İslamla əlaqəsi varmı? Dinimiz Novruzun keçirilməsinin əleyhinədirmi?

Əlbəttə, bayramın keçirilməsinin lehinə olanlar kimi, onun əleyhinə olanlar da tapılır. Və öz fikirlərini Novruzun İslam dininə aid olmaması, keçmiş dövrlərin bütpərəstlik adətlərini daşıması ilə əlaqələndirirlər.

Uzun illərdir ki, tədqiqatçılar Novruzun yaranma tarixini, onun Zərdüştilik və ya müsəlman mədəniyyəti ilə əlaqələrini araşdırırlar. Bəzi araşdırmaçılar belə qənaətə gəlmişlər ki, Novruzun yaranışının nə Zərdüştiliklə, nə də İslam dini ilə əlaqəsi var. Çünki burada müşahidə olunan ritual elementləri şaman, buddist, xristian və müsəlman türklərin mövsümlə bağlı icra etdikləri ortaq ayinlərdir. Hər din zaman keçdikcə bu el bayramına özündən nə isə qatmağa çalışmış, beləliklə də, əski mərasim mədəniyyəti ilə bəzi dini motivlər birləşdirilmişdir.



Novruz milli şülən, birlik, qardaşlıq bayramıdır. Həmçinin, Novruz baharın ilk günü, təbiətin canlanması, torpağın oyanması, yeni həyatın başlanması deməkdir. Novruz bayramında atəşpərəstlik və bütpərəstliklə bağlı müəyyən oxşar incə məqamlar tapmaq mümkündür. Məsələn, odun üstündən tullanmaq adətinə nəzər yetirin. Qədimdə insanlar bunu oda sitayiş məqsədilə edə bilərdilər. Ancaq müasir azərbaycanlı bunu oda sitayiş niyyəti ilə etmir.

Bildiyimiz kimi, İslam dini bütün gözəl, xeyirxah əməlləri özündə birləşdirir. Novruz bayramı da bu dəyərləri və prinsipləri özündə daşıdığı, təbliğ etdiyi üçün dinimizə yad deyildir. Mənbələr deyir ki, Xilafət fəth etdiyi ərazilərdə, eləcə də Azərbaycanda yerli xalqların adət-ənənələrinə, inanclarına hörmətlə yanaşmışdır. Əsrlərin sınağından çıxmış mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadan Novruz insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam dəyərlərin təbliğatçısı olduğundan dinimiz ona dəstək vermişdir.

Bayram ərəfəsində bütün el-oba bayram hazırlıqlarına başlayır. Ev-eşik, həyət-baca təmizlənir, təzə paltar alınır, bazarlıq edilir, bayram yeməkləri hazırlanır və s. Bu gün bütün qəlblərdən kin-küdurət silinir. Yaxın-uzaq qohumlara, xəstələrə baş çəkilir, qohum-qonşu hamı bayramlaşır, imkansızlara, kasıblara yardım əli uzadılır. Göründüyü kimi, bütün bu adətlər İslamın ruhu ilə bütünlük təşkil edir.

Əziz həmvətənlər, Bahar bayramınız mübarək! Qoy bu bayramın qədəmləri uğurlu, könül oxşayan sevincli günləri bol olsun, süfrənizi ruzi-bərəkətlə, qəlbinizi xoş hisslərlə doldursun!

*Güney NAMAZOVA*

# Dini qurumların dövlət reyestr məlumatı

## Ləğv olunan dini icmalar

**İsmayıllı rayonu Kürdmaşı kənd dini icması**
**Qeydiyyat tarixi: 19.03.2003-cü il**
**Qeydiyyat № 168**
İsmayıllı rayonu Kürdmaşı kənd dini icması təsisçilərinin 17.01.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 18 fevral 2015-ci il.**

**Oğuz rayonu Dəymədağlı kənd dini icması**
**Qeydiyyat tarixi: 25.01.2002-ci il**
**Qeydiyyat № 26**
Oğuz rayonu Dəymədağlı kənd dini icması təsisçilərinin 06.02.2015-ci il tarixli, 03 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 18 fevral 2015-ci il.**

**Şamaxı rayonu Adnalı kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 01.03.2007-ci il**
**Qeydiyyat № 1307Ş1-383**
Şamaxı rayonu Adnalı kənd məscidi dini icması təsisçilərinin 20.02.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 06 mart 2015-ci il.**

**Tərtər şəhər dini icması**
**Qeydiyyat tarixi: 06.03.2002-ci il**
**Qeydiyyat № 76**
Tərtər şəhər dini icması təsisçilərinin 10.02.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 06 mart 2015-ci il.**

**Suraxanı rayonu Yeni Günəşli qəsəbəsində fəaliyyət göstərən "Fatimeyi-Zəhra" adına məscidin dindarlarının dini icması**
**Qeydiyyat tarixi: 17.10.1997-ci il**
**Qeydiyyat № 77**
2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin 25.02.2014-cü il tarixli, 2-2(82)-765/14 saylı qətnaməsi ilə Suraxanı rayonu Yeni Günəşli qəsəbəsində fəaliyyət göstərən "Fatimeyi-Zəhra" adına məscidin dindarlarının dini icması ləğv edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi:12 mart 2015-ci il.**

**Şamaxı rayonu Mədrəsə qəsəbə "Cümə" məscidi dini icması**
Qeydiyyat tarixi: 29.03.2009-cu il
Qeydiyyat № 52
Şamaxı rayonu Mədrəsə qəsəbə "Cümə" məscidi dini icması təsisçilərinin 24.02.2015-ci il tarixli, 05 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi:16 mart 2015-ci il.**

**Neftçala şəhəri 6-cı məhəllə dini icması**
Qeydiyyat tarixi: 05.02.2003-cü il
Qeydiyyat № 163
Neftçala şəhəri 6-cı məhəllə dini icması təsisçilərinin 10.02.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi:16 mart 2015-ci il.**

**Bakı şəhəri Qaradağ rayonu Qızıldaş qəsəbəsi dini icması**
**Qeydiyyat tarixi: 19.11.2003-cü il**
**Qeydiyyat № 226**
Bakı şəhəri Qaradağ rayonu Qızıldaş qəsəbəsi dini icması təsisçilərinin 11.02.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi:16 mart 2015-ci il.**

**Sabunçu rayonu Bilgəh qəsəbəsi "Cümə" məscidi dini icması**
**Qeydiyyat tarixi: 01.04.1997-ci il**
**Qeydiyyat № 151**
Sabunçu rayonu Bilgəh qəsəbəsi "Cümə" məscidi dini icması təsisçilərinin 20.02.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi:16 mart 2015-ci il.**

**Biləsuvar rayonu Aşağı Cürəli kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 12.09.2008-ci il**
**Qeydiyyat № 1308 Bİ1-516**
Biləsuvar rayonu Aşağı Cürəli kənd məscidi dini icması təsisçilərinin 16.02.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 16 mart 2015-ci il.**

**Qaradağ rayonu Qobustan qəsəbəsi "Cümə" məscidi dini icması**
**Qeydiyyat tarixi: 18.01.2002-ci il**
**Qeydiyyat № 13**
Qaradağ rayonu Qobustan qəsəbəsi "Cümə" məscidi dini icması təsisçilərinin 20.02.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 17 mart 2015-ci il.**

# E L A N L A R

Şamaxı rayonu Adnalı kənd icmasının (1307Ş-383 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 20.02.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Tərtər şəhər dini icmasının (76 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 10.02.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Şamaxı rayonu Mədrəsə qəsəbə "Cümə" məscidi dini icmasının (52 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 29.03.2009-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Neftçala şəhəri 6-cı məhəllə dini icmasının (163 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 05.02.2003-cü il tarixli ümumi yığıncağında 1 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Bakı şəhəri Qaradağ rayonu Qızıldaş qəsəbəsi dini icmasının (226 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 05.02.2003-cü il tarixli ümumi yığıncağında 1 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Biləsuvar rayonu Aşağı Cürəli kənd dini icmasının (1308BI1-516 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 16.02.2003-cü il tarixli ümumi yığıncağında 1 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Sabunçu rayonu Bilgəh qəsəbəsi "Cümə" məscidi dini icmasının (151 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 20.02.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Qaradağ rayonu Qobustan qəsəbəsi "Cümə" məscidi dini icmasının (13 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 20.02.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Şamaxı rayonu Bağırlı kənd məscidi dini icmasının (1307Ş1-396 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 12.03.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Hacıqabul şəhər dini icmasının (254 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 13.03.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Goranboy rayon Qızılhacılı qəsəbə məscidi dini icmasının (159 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 07.03.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Qax rayon İlisu kənd "Cümə" məscidi dini icmasının (322 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 10.03.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Qax rayon Ağçay kənd "Cümə" məscidi dini icmasının (524 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 04.03.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Qax şəhər dindarları məscidi dini icmasının (332 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 04.03.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Balakən rayonu Katex kənd məscidi dini icmasının (222 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 09.03.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

İsmayıllı rayonu Təzəkənd kənd dini icmasının (316 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 04.03.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Biləsuvar rayonu Səmədabad kənd məscidi dini icması (213 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 05.03.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Zaqatala rayonu Muğanlı kənd məscidi dini icması (123 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 04.03.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Zaqatala rayonu Danaçı kənd məscidi dini icması (210 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 06.03.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Qəbələ rayonu Bum kənd məscidi dini icması (55 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 07.03.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Qəbələ rayonu Böyük Pirəlli kənd dini icması (280 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 07.03.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatına alınmış Qaradağ rayonu Qobustan qəsəbəsi "Cümə" məscidi dini icmasının 13 nömrəli, 18 yanvar 2002-ci il tarixli şəhadətnaməsi itirildiyinə görə etibarsız sayılır.

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatına alınmış Hacıqabul şəhər dini icmasının 254 nömrəli, 07 may 2002-ci il tarixli şəhadətnaməsi və nizamnaməsi itirildiyinə görə etibarsız sayılır.

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatına alınmış Biləsuvar rayonu Səmədabad kənd məscidi dini icmasının 213 nömrəli, 01 sentyabr 2003-cü il tarixli şəhadətnaməsi və nizamnaməsi itirildiyinə görə etibarsız sayılır.

Cəmiyyət və Din
№ 03 (284) / MART 2015-ci il

## ELAN

# Dövlət Komitəsi müsabiqə elan edir

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi **Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 92 illik yubileyi** münasibətilə **"Heydər Əliyev və müasir Azərbaycan dövlətçiliyi"** mövzusunda məqalə müsabiqəsi elan edir.

Müsabiqəyə Ulu Öndər Heydər Əliyevin müasir Azərbaycan tarixindəki rolunu, onun demokratik dövlət quruculuğu istiqamətində həyata keçirdiyi müdrik və uğurlu fəaliyyətini, Azərbaycanın iqtisadi inkişafını, daxili və xarici siyasətini təhlil edən məqalələr göndərilə bilər. Həmçinin əsası Ümummilli Lider tərəfindən qoyulmuş dövlət-din münasibətlərinin inkişaf etdirilməsi istiqamətində görülən işlərdən bəhs edən məqalələr də qəbul olunur.

### Kriteriyalar

- Məqalə innovativ və əhatəli olmalıdır;
- Müsabiqə elan olunduqdan sonra qəzet və ya elektron internet portallarında dərc edilməlidir;
- Məqalənin həcmi 8 000 (səkkiz min) işarədən artıq olmamalıdır. (1,5 aralıq məsafə ilə təxminən 3-4 A4 formatlı vərəq həcmində);
- Yazılar qəzetdə dərc edilərsə: A4 formatlı vərəqdə (Times New Roman 14 şrift) və 1 nüsxə qəzet şəklində Dövlət Komitəsinə təqdim olunmalıdır;
- Elektron portalda dərc edilərsə: A4 formatlı vərəqdə (Times New Roman 14 şrift) çap edilməli və link əlavə edilərək Dövlət Komitəsinə təqdim olunmalıdır.

**I yer – 500 AZN**
**II yer – 400 AZN**
**III yer – 300 AZN**
**Hər biri 100 AZN olmaqla üç həvəsləndirici mükafat.**

Müsabiqənin müddəti: **19 mart - 27 aprel 2015-ci il**
Əlaqə telefonları: **(012) 437 31 15 / (012) 492 65 23**
E-mail: **redaksiya@scwra.gov.az**
Ünvan: **Bakı şəhəri, Əhməd Cavad 12**

# Müqəddəs Mərhəmət ili elan olunub

Katolik Kilsəsi 2015-ci il dekabrın 8-dən 2016-cı il noyabrın 20-dək olan dövrü Müqəddəs Mərhəmət ili elan edilib. Bu barədə Müqəddəs Pyotr kilsəsindəki tövbə ibadəti zamanı Papa Fransisk məlumat verib.

Vatikan radiosunun xəbərinə görə, fövqəladə yubiley ilinin ilk günündə, Bakirə Məryəmin Məsum Hamiləliyi bayramında Vatikan bazilikasının Müqəddəs darvazaları açılacaq. Yubiley tədbirləri Padşah-Məsih bayramı ilə bitəcək.

Yubiley tədbirlərinin təşkilatçılığı yeni yevangelizasiyaya kömək üzrə Papa şurasına tapşırılıb. Müqəddəs Mərhəmət ilinin açılışı II Vatikan Məclisinin başa çatmasının 50 illiyinə təsadüf edir.

Müqəddəs Bağışlanma ili sonuncu dəfə II İohann Pavelin pontifikliyi dövründə - 1983-cü ildə keçirilmişdi.

Qeyd edək ki, mərhəmət mövzusu hazırkı pontifikə xüsusilə yaxındır. Onun "Evangelii gaudium" apostol müraciətnaməsində bu kəlmə 31 dəfə işlədilib.

## Başsağlığı

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin** kollektivi Cənub bölgəsi üzrə şöbənin müdiri Qağayı Məmmədova anası
**ATİKƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir
və dərin hüznlə başsağlığı verir.
**Allah rəhmət eləsin**

## Yadigar söz

*Blez Paskal*
*riyaziyyatçı, fizik, filosof*

**Mənə filosofların deyil, peyğəmbərlərin xəbər verdiyi Allah gərəkdir.**

## Bakı və Abşeron üzrə namaz vaxtları

| Gün | Sübh namazı | Gün çıxır | Zöhr namazı | Əsr namazı | Axşam namazı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 Aprel | 06:16 | 07:27 | 13:49 | 17:51 | 20:17 | 21:37 |
| 2 Aprel | 06:14 | 07:25 | 13:49 | 17:52 | 20:18 | 21:38 |
| 3 Aprel | 06:12 | 07:23 | 13:48 | 17:52 | 20:20 | 21:39 |
| 4 Aprel | 06:10 | 07:22 | 13:48 | 17:53 | 20:21 | 21:40 |
| 5 Aprel | 06:09 | 07:20 | 13:48 | 17:53 | 20:22 | 21:42 |
| 6 Aprel | 06:07 | 07:18 | 13:47 | 17:54 | 20:23 | 21:43 |
| 7 Aprel | 06:05 | 07:17 | 13:47 | 17:55 | 20:24 | 21:44 |
| 8 Aprel | 06:03 | 07:15 | 13:47 | 17:55 | 20:25 | 21:45 |
| 9 Aprel | 06:02 | 07:14 | 13:47 | 17:56 | 20:26 | 21:47 |
| 10 Aprel | 06:00 | 07:12 | 13:46 | 17:56 | 20:27 | 21:48 |
| 11 Aprel | 05:58 | 07:10 | 13:46 | 17:57 | 20:28 | 21:49 |
| 12 Aprel | 05:56 | 07:09 | 13:46 | 17:57 | 20:29 | 21:51 |
| 13 Aprel | 05:54 | 07:07 | 13:46 | 17:58 | 20:30 | 21:52 |
| 14 Aprel | 05:53 | 07:06 | 13:45 | 17:58 | 20:31 | 21:54 |
| 15 Aprel | 05:51 | 07:04 | 13:45 | 17:59 | 20:32 | 21:55 |
| 16 Aprel | 05:49 | 07:03 | 13:45 | 17:59 | 20:33 | 21:56 |
| 17 Aprel | 05:47 | 07:01 | 13:45 | 18:00 | 20:34 | 21:58 |
| 18 Aprel | 05:46 | 07:00 | 13:44 | 18:00 | 20:35 | 21:59 |
| 19 Aprel | 05:44 | 06:58 | 13:44 | 18:01 | 20:36 | 22:00 |
| 20 Aprel | 05:42 | 06:57 | 13:44 | 18:01 | 20:37 | 22:02 |
| 21 Aprel | 05:40 | 06:55 | 13:44 | 18:02 | 20:39 | 22:03 |
| 22 Aprel | 05:39 | 06:54 | 13:43 | 18:02 | 20:40 | 22:05 |
| 23 Aprel | 05:37 | 06:52 | 13:43 | 18:03 | 20:41 | 22:06 |
| 24 Aprel | 05:35 | 06:51 | 13:43 | 18:03 | 20:42 | 22:08 |
| 25 Aprel | 05:34 | 06:50 | 13:43 | 18:04 | 20:43 | 22:09 |
| 26 Aprel | 05:32 | 06:48 | 13:43 | 18:04 | 20:44 | 22:11 |
| 27 Aprel | 05:30 | 06:47 | 13:42 | 18:05 | 20:45 | 22:12 |
| 28 Aprel | 05:29 | 06:45 | 13:42 | 18:05 | 20:46 | 22:13 |
| 29 Aprel | 05:27 | 06:44 | 13:42 | 18:06 | 20:47 | 22:15 |
| 30 Aprel | 05:25 | 06:43 | 13:42 | 18:06 | 20:48 | 22:16 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Mərəzə, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Fizuli, Horadiz, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Xanlar, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim Azərbaycan MEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## BAYRAMINIZ MÜBARƏK!



Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Oqtay ORUCOV *(məsul katib)*, Gennadi ZELMANOVİÇ.

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
Qaynar xətt: qaynar_xett@scwra.gov.az
E-mail: cemiyyet-din@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı (Bakı): (012) 437 31 14; Sumqayıt-Abşeron (Sumqayıt): (0186) 5 85 98; Şimal (Quba): (02333) 5 22 70; Şimal-Qərb (Zaqatala) (02422) 5 32 23; Şirvan (Ağdaş): (02023) 5 50 97; Qərb (Gəncə): (02225) 6 91 14; Qarabağ (Ağcabədi): (02127) 5 52 00; Cənub (Lənkəran): (02525) 5 39 84; Aran (Şirvan) (050) 588 07 82

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Həftəlik qəzet
Tiraj: 1200
Sifariş: 124

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894